RƏSMİ DÖVLƏT QƏZETİ



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 108 (8424) ÇƏRŞƏNBƏ AXŞAMI, 9 iyun 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



# İlham Əliyevin mütərəqqi islahatlarına növbəti yüksək qiymət

# “Beşbarmaq dağı” Dövlət Tarix-Mədəniyyət və Təbiət Qoruğunun yaradılması haqqında

## Azərbaycan Respublikası Prezidentinin SƏRƏNCAMI

Azərbaycanın unikal təbiət abidələrindən olan Siyəzən rayonunun Qalaşıxı kəndi ərazisindəki Beşbarmaq dağının ətrafında dövlət mühafizəsinə götürülmüş bir sıra tarix və mədəniyyət abidələri (son tunc - ilk dəmir dövrünə aid yaşayış yeri, Xızırzində piri, ilk orta əsrlərə aid qala qalıqları, XV-XVII əsrlərə aid karvansara qalıqları) yerləşir.

İlk orta əsrlərə aid Beşbarmaq paralel müdafiə səddi “Xəzər sahil mühafizə konstruksiyaları” daxilində 2001-ci il oktyabrın 24-də UNESCO-nun Təcili Qorunmaya Ehtiyacı olan Maddi-Mədəni İrsin İlkin Siyahısına daxil edilmişdir.

Beşbarmaq dağının Azərbaycan tarixi və mədəni irsi üçün əhəmiyyətini nəzərə alaraq ətraf ərazilərdə mədəni və təbii irsin qorunması, habelə burada turizmin inkişaf etdirilməsi məqsədilə Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Siyəzən rayonunun Qalaşıxı kəndində yerləşən Beşbarmaq dağı təbiət abidəsinin ərazisi “Beşbarmaq dağı” Dövlət Tarix-Mədəniyyət və Təbiət Qoruğu elan edilsin.

2. Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi “Beşbarmaq dağı” Dövlət Tarix-Mədəniyyət və Təbiət Qoruğunun idarə olunmasını təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

3.1. Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi, Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyası və Siyəzən Rayon İcra Hakimiyyəti ilə birlikdə iki ay müddətində “Beşbarmaq dağı” Dövlət Tarix-Mədəniyyət və Təbiət Qoruğunun sərhədini və mühafizə zonasını müəyyənləşdirib təsdiq etsin;

3.2. “Beşbarmaq dağı” Dövlət Tarix-Mədəniyyət və Təbiət Qoruğunun ərazisinin xüsusi rejimini üç ay müddətində müəyyən edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

3.3. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

4. “Beşbarmaq dağı” Dövlət Tarix-Mədəniyyət və Təbiət Qoruğunun fəaliyyəti ilə bağlı tələb olunan zəruri xərclər Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsində Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi üçün nəzərdə tutulmuş vəsait hesabına həyata keçirilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 8 iyun 2020-ci il*

# Azərbaycan korrupsiyaya qarşı mübarizədə Avropa Şurasına üzv 50 ölkə arasında 7-ci, MDB ölkələri arasında liderdir

Demokratik və sivil inkişaf yolu seçmiş hər bir dövlətin qarşıya qoyduğu əsas məqsədlərdən biri korrupsiyaya qarşı mübarizədir. Çünki korrupsiyanın mövcudluğu ilk növbədə ümumbəşəri və milli dəyərləri sarsıdır, hüquqi dövlət quruculuğuna mane olur. Bununla yanaşı, korrupsiya cəmiyyətin ehtiyatlarından səmərəsiz istifadə edilməsinə şərait yaradır, aztəminatlı insanlara ziyan vurur. Bir sözlə, korrupsiya dünyanı narahat edən problemlərdən biridir.

Digər ölkələrdə olduğu kimi, Azərbaycanda da hər zaman korrupsiyaya, ruşvətxorluğa qarşı mübarizə aparılıb və son illərdə Prezident İlham Əliyevin həyata keçirdiyi islahatlara kölgə salan korrupsiya hallarına qarşı mübarizə tədbirləri daha da gücləndirilib. Bunu təsdiqləyən kifayət qədər faktlar mövcuddur.

## Azərbaycanda korrupsiyaya qarşı mübarizə tədbirləri davam etdirilir

Ümumiyyətlə, korrupsiyaya qarşı mübarizədən yalnız o halda danışmaq olar ki, dövlət öz siyasi iradəsini ortaya qoysun və korrupsiyanın qarşısını almaq üçün cəmiyyətin bütün səviyyələrində onunla davamlı mübarizə aparsın. Əgər belə olmazsa, heç bir dövlət cəmiyyəti korrupsiyadan təmizlədiyini iddia edə bilməz.

Azərbaycanda korrupsiyaya qarşı mübarizə qanunçuluq prinsipləri əsasında həyata keçirilir. Şəffaflığın artırılması, korrupsiyaya şərait yaradan halların aradan qaldırılması və qabaqlayıcı tədbirlərin həyata keçirilməsi korrupsiyaya qarşı mübarizənin əsas prinsipləri kimi təsbit edilib.

Dövlət siyasətinin prioritet istiqamətlərindən olan korrupsiyaya qarşı mübarizə tədbirləri Azərbaycanda həyata keçirilməkdə olan sosial-iqtisadi və hüquqi islahatların ruhuna uyğun olaraq daha intensiv xarakter alıb. Ölkəmizdə iqtisadiyyatın liberallaşdırılması, bürokratik əngəllərin aradan qaldırılması, məmur-vətəndaş münasibətlərinin sağlam zəmində qurulması, şəffaflığın və hesabatlılığın təmin edilməsi və digər bu kimi korrupsiyaya qarşı mübarizə tədbirləri konkret əməli-praktiki addımlarla müşayiət olunub. Aparılan genişmiqyaslı islahatların digər istiqaməti kimi milyonlarla vətəndaşa xidmət göstərməklə dövlət qulluqçusu-vətəndaş münasibətlərində yeni yanaşmanın formalaşmasına mühüm töhfə verən, bürokratiya, süründürməçilik və korrupsiya hallarının aradan qaldırılmasında əhəmiyyətli rol oynayan “ASAN xidmət” mərkəzlərinin fəaliyyət coğrafiyasının daha da genişləndirilərək 19 mərkəzə çatdırılması, habelə yarandığı gündən keçən qısa müddət ərzində bu xidmətə 38 milyondan çox müraciət daxil olması, əhalinin məşğulluğu, əmək, sosial müdafiə və təminat sahələri üzrə DOST mərkəzlərinin fəaliyyətə başlaması Azərbaycanda korrupsiyaya qarşı mübarizə sahəsində dövlət və cəmiyyət arasında olan həmrəyliyin bariz nümunəsidir.

Cənab İlham Əliyevin rəhbərliyi ilə bir çox fərqli sahələri sistemli şəkildə əlaqələndirən islahatların müsbət nəticələri vətəndaş-məmur təmasında şəffaflıq, hesabatlılıq və rəqəmsallaşmanın genişlənməsi kimi korrupsiya riskini minimuma endirən indikatorlara öz töhfəsini verib, bununla da hüquqi şəxslərin dövlət qeydiyyatı, tikinti, elektrik, əmlakın qeydiyyatı, vergi, gömrük, xarici ticarət və dövlət satınalmaları kimi ayrı-ayrı sektorların yeni inkişaf müstəvisinə keçidi stimullaşdırıb.

*Ardı 4-cü səh.*

# “Siz hər bir azərbaycanlının Prezidenti olduğunuzu öz əməli işlərinizlə sübut edirsiniz”

Azərbaycan Prezidenti İlham Əliyevə minnətdarlıq məktubları ünvanlanmaqda davam edir. Ölkəmizin bütün guşələrindən və xaricdən həmvətənlərimiz dövlət başçısının diqqət və qayğısından razılıqlarını bildirirlər. AZƏRTAC Prezidentin saytına istinadla minnətdarlıq məktublarının daha bir neçəsini təqdim edir.

Cəlilabad rayonunun Göytəpə şəhərindən **İqbal Əkbərov** və **Dünyamalı Ağababayev** yazırlar: “Möhtərəm cənab Prezident, Sizin rəhbərliyinizlə Azərbaycan müasir inkişafının ən yüksək zirvəsinə yüksəlib, beynəlxalq aləmdə özünə layiqli yer tutub. Ölkəmizdə qeyri-neft sektorunun inkişafına göstərdiyiniz qayğı aqrar sektora güclü təkan verib və ərzaq təhlükəsizliyini təmin edib. Biz bunu Cəlilabad rayonunun timsalında bir daha görürük. Bizim məşğuliyyətimiz kartofçuluqdur. İstehsal etdiyimiz məhsul respublikamızla yanaşı, xarici bazarlara da çıxarılır. Bu il karantin rejiminin məhdudiyyətlərinə baxmayaraq, Siz məhsulun Rusiyaya göndərilməsinə şərait yaratdınız. Min bir əziyyətlə istehsal etdiyimiz kartofu Rusiyaya göndərməklə yaxşı pul qazanmağa və güzəranımızı yaxşılaşdırmağa nail olduq. Cənab Prezident, bütün bunlara görə Sizə minnətdarlığımızı bildiririk. Allah Sizi qorusun!”

Cəlilabad rayonunun daha bir qrup sakini **Möhübbət Alışov, Ramin Babayev, Məhəmməd Muradov, Baladin Balayev, Rafəddin Mehdiyev, Tahir Hüseynov** və **Əliqismət Qasımov** yazırlar: “Əziz və hörmətli cənab Prezident, bu gün dünyada, o cümlədən qonşuluğumuzdakı ölkələrdə tüğyan edən iqtisadi-siyasi problemlərin təsirindən Azərbaycanı və xalqımızı qorumaq üçün bütün qüvvələri səfərbər etmisiniz. Biz bölgələrdə və kəndlərdə yaşayan vətəndaşlar olaraq Sizə daim güvənirik. Koronavirus pandemiyası bəlasının tüğyan etdiyi bir dövrdə verdiyiniz uzaqgörən qərarlarla bizi bu bəlalardan minimum itkilərlə xilas etməkdəsiniz. Cənab Prezident, becərdiyimiz məhsulları xarici bazarlara göndərilməsini təşkil etdiyinizə görə Sizə dərin minnətdarlığımızı bildiririk”.

*Ardı 2-ci səh.*



# Prezident hədiyyəsi

## Şamaxıda 43 yeni mənzil tezliklə sakinlərə təhvil veriləcək

Ötən ilin fevralında respublikanın şimal bölgəsində baş vermiş təbii fəlakətin fəsadlarının tam aradan qaldırılması istiqamətində görülən işlər bu gün də davam etdirilir. Şamaxı, Ağsu və İsmayıllıda yüzlərlə fərdi evlər tikilərək sakinlərə təhvil verilib. Bu günlərdə Şamaxıda apardığımız müşahidələrə əsaslanaraq deyə bilərik ki, hazırda rayonda tikinti prosesləri sürətlə həyata keçirilir.

Prezident İlham Əliyevin tapşırığına əsasən Fövqəladə Hallar Nazirliyi tərəfindən Şamaxı üzrə 205, Ağsu üzrə 251, İsmayıllı üzrə isə 124, ümumilikdə 580 fərdi yaşayış evi tikilib. Hazırda hər 3 rayon üzrə 63 (Şamaxıda 43, Ağsuda 13, İsmayıllıda 7) fərdi evin tikintisi davam etdirilir.

Birinci vitse-prezident Mehriban Əliyevanın göstərişi ilə Heydər Əliyev Fondunun “Regionl İnkişaf” İctimai Birliyi tərəfindən rayon mərkəzindəki Şəhriyar, Təbriz, Salman Mümtaz, Azadlıq və Səttar Bəhlulzadə küçələrində sakinlər üçün tikilən mənzillərin böyük hissəsi istifadəyə verilib.

*Ardı 5-ci səh.*

# DÜNYANIN SONU... (MU?!.)

**“Biz birlikdə güclüyük!..”**

***Çox uğurlu ifadədir!..***

**Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin koronavirus pandemiyasına qarşı gərgin mübarizə dövründə irəli sürdüyü bu çağırış, əslində, pandemiyadan sonra bütün dünya üçün aktual olacaq.**

Bu çağırış insanların sülh, xoşbəxtlik və hüzur içində yaşaya biləcəkləri daha gözəl bir dünyanın qurulmasını arzulayan hər bir insanın ali missiyasına çevriləcək, bəşəriyyəti mənəvi dəyərlər ətrafında bir araya gəlməyə səsləyəcək.

Əslində, bu, Azərbaycanın belə bir məzmunda bütün dünyaya xitabən gündəmə gətirdiyi ilk çağırış deyil.

Multikultural dəyərlərin, fərqli mədəniyyətlərə hörmət ruhunun, tolerantlığın Yer üzündə yayılmasına, hər kəs üçün ali həyat prinsipinə çevrilməsinə, insanların sülh, inkişaf naminə birləşməsinə yönələn qlobal təşəbbüsləri ilə, hər il ölkəmizdə keçirilən beynəlxalq humanitar forumlarla Azərbaycan illərdir ki, buna çalışır, planetimizdə eyni sağlam ideyaları paylaşan hər kəsi bu niyyət ətrafında bir araya gətirməyə can atır.

**Həyat göstərdi ki, bəşəriyyətin sağlam bir gələcək naminə öz gücünü birləşdirməkdən başqa seçimi yoxdur.**

**Azərbaycan hər zaman olduğu kimi, bu məsələdə də nümunə yaratdı.**

**Dövlət rəhbərimizin QƏTİYYƏTİ, həyata keçirdiyi çevik və qabaqlayıcı tədbirlər, insanlara diqqət və qayğısı sayəsində ölkəmiz pandemiyada ən az itkilərlə üzləşən ölkələrdən oldu və arzu edək ki, bəlanın kökü tam kəsilənə qədər də belə olsun.**

*Bax: səh. 3*



# Heç bir maneə regionların inkişafını ləngidə bilməz

## Prezidentin Qarabağ bölgəsinə növbəti səfəri bu dəfə də yeni obyektlərin açılışı ilə yadda qaldı

Xəbər verildiyi kimi, Prezident İlham Əliyev koronavirus pandemiyası dövründə Bakı, Sumqayıt şəhərlərində və Şamaxı rayonunda bir sıra sosial-iqtisadi obyektlərin açılışında iştirak etmiş, ölkədəki mövcud dinamik iqtisadi inkişafı qorumaq, pandemiyadan daha az itki ilə çıxmaq üçün konkret tədbirlər həyata keçirmişdir.

Dövlət başçısının iyunun 3-də Qarabağ bölgəsinə - Tərtər və Ağcabədi rayonlarına səfəri isə bölgələrin inkişafının da diqqət mərkəzində qaldığını göstərir.

2004-cü ildə regionların sosial-iqtisadi inkişafına dair ilk dövlət proqramının qəbul edilməsindən bugünədək icra olunan dörd analoji proqram sayəsində regionların sosial-iqtisadi siması tamamilə dəyişmiş, bölgələrdə iri sosial-iqtisadi müəssisələrlə yanaşı, kiçik və orta obyektlər fəaliyyətə başlamış, yeni iş yerləri açılmış, əhalinin iqtisadi fəaliyyəti canlanmışdır.

*Ardı 4-cü səh.*

# Fədakar qanun keşikçiləri

## Azərbaycan polisi layiqli işi ilə koronavirusla mübarizədə də ön sıradadır

“Əziz vətəndaşlar!

Xüsusi karantin rejiminin sərtləşdirilməsi ilə əlaqədar ötən həftənin şənbə və bazar günlərində sizlərə yaşayış yerini və olduğu yeri tərk etmək qadağan edilmişdir. Sizin sağlamlığınız naminə atılan bu addımları anlayışla qarşıladığınıza görə, xüsusi karantin rejiminin tələblərinə riayət etdiyinizə görə sizə daxili işlər orqanlarının bütün şəxsi heyəti adından təşəkkürümüzü bildiririk!

Siz səbir və təmkinlə iki gün evdə qalmaqla həm özünüzün, həm də yaxınlarınızın sağlamlığını qorumuş oldunuz. İnanırıq ki, gələcəkdə də belə qərar verilərsə, siz yenə də eyni səbir və təmkin nümayiş etdirəcəksiniz.

Bir daha təşəkkür edirik!”

Bu, Daxili İşlər Nazirliyinin vətəndaşlara təşəkkürüdür. Bəli, iki gün davam edən sərt karantin rejimi - küçəyə çıxmaq qadağası zamanı vətəndaşların böyük əksəriyyəti qoyulan tələbləri yerinə yetirdi, qaydalara uyğun olaraq evdə qaldı. Lakin bu dəfə də intimzamsız davranaraq qaydalara məhəl qoymayan, küçədə-yolda gəzənlər, binanın damında domino oynayan, kabab çəkən məsuliyyətsiz insanlar oldu. Onların bəziləri xəbərdarlıq edilərək evlərinə qaytarıldı, bəziləri sərt karantin rejimi qaydalarını pozduqları üçün qanun çərçivəsində məsuliyyətə cəlb edildi, bəziləri isə polislə “qaçdı-tutdu” oynadı.

*Ardı 5-ci səh.*

## Vətəndaşlar dövlət başçısına minnətdarlıq edirlər



# "Siz hər bir azərbaycanlının Prezidenti olduğunuzu öz əməli işlərinizlə sübut edirsiniz"

*Əvvəli 1-ci səh.*

Rusiyanın Moskva vilayətinin Fryazino şəhərindən **Nizami Abdullayev:** "Hörmətli cənab Prezident, mən Qarabağ müharibəsi veteranıyam. Taleyin qismətindən hazırda Rusiyada yaşayıram. Bu məktub vasitəsilə Sizə minnətdarlığımı bildirmək istəyirəm. Siz hər bir azərbaycanlının Prezidenti olduğunuzu öz əməli işlərinizlə sübut edirsiniz. Bunu deməyə mənim haqqım var. Üzləşdiyim vəziyyəti qısaca qeyd etsəm yəqin ki, hər şey aydın olar. Bu çətin pandemiya dövründə ailəmə kömək göstərilməsi ilə əlaqədar Sizə müraciət etmişdim. Bir neçə gündən sonra ərzaq yardımı ilə təmin olunduq. Belə bir qayğını görmək, hiss etmək, əlbəttə ki, qürurvericidir. Əziz Prezidentimiz, bizi darda qoymadığınız üçün ailəmin adından Sizə təşəkkür edirəm. Bizim ailə fəxr edir ki, doğma Azərbaycanımızın Prezidenti məhz Sizsiniz. Allah Sizdən razı olsun!"

Gəncə şəhərindən təqaüddə olan müəllim **Sevil Babayeva:** "Möhtərəm Prezident, Sizin söylədiyiniz "İnsanların sağlamlığı, təhlükəsizliyi, rahatlığı və rifahı bizim üçün hər şeydən üstündür" sözləri bizi ruhlandırır. Sanki dağa söykənmişik. Mehriban xanım Əliyevanın xalqımıza bir ana, bacı, nənə kimi müraciət etməsi və müraciətlərinin sonunda "Sizin Mehriban" imzasını qoyması ən xoş sözlərə layiqdir. Bu sözlərin, gördüyünüz işlərin əks-sədası çox-çox uzaqlara gedib çıxır. Bu sözlər, bu xoş münasibət bizə ən yaxşı valideynləri, ailə üzvlərini xatırladır. Cənab Prezident, bacıma söylədim ki, bu çətin pandemiya dövründə mən Prezidentimizi düşündüyümdən də güclü, bacarıqlı, xalqı üçün fədakarlıq nümayiş etdirən gördüm. Bacım isə cavab olaraq mənə dedi: "O, müdrik şəxsiyyətin, Ulu Öndərin oğludur. Elə də olmalıdır". Əziz Prezidentim, ürəyimdə sözüm çoxdur. Hamısını yazsam yəqin ki, bir məktuba sığmaz. Allah Sizi və ailə üzvlərinizi pis gözdən, bəd nəzərdən uzaq etsin!"

Qazax şəhərindən **Nurlanə Əhmədli** və **İlhamə Əsədova** yazırlar: "Möhtərəm Prezident, bütün dünyaya yayılan koronavirusun ölkəmizdə qarşısının alınması üçün öncədən gördüyünüz tədbirlər bu gözəgörünməz düşmənlə mübarizənin ilkin mərhələsində səmərəsini verdi. Bunun sayəsində ölkəmizdə xəstələrin və itkinin sayı xeyli az oldu. Karantin dövründə Sizin sərəncamınız və tapşırığınız ilə əhali üçün yardım paketləri müəyyən olundu və vətəndaşlara böyük kömək göstərildi. Biz bu tədbirlərin dəyərini indi daha aydın hiss edirik. Çünki karantin rejimi yumşaldıqdan və bəzi məhdudiyyətlər aradan qaldırıldıqdan sonra koronavirusa yoluxanların sayı bir qədər artmışdır. Sözsüz ki, bu mənzərə hamını yenidən narahat etməyə başlamışdır. Mətbuatdan oxuyur və eşidirik ki, bunun qarşısının alınması üçün növbəti tədbirlər həyata keçiriləcək. Hörmətli cənab Prezident, məqsədyönlü tədbirlər hesabına mövcud narahatlığın tezliklə birdəfəlik aradan qaldırılacağına inanırıq. Gördüyünüz işlər üçün Sizə təşəkkür edir, daxili və xarici siyasətinizdə növbəti uğurlar arzulayırıq".

Lənkəran şəhərindən **Əlizadə Quliyev** və **İsmayıl Ağayev:** "Hörmətli cənab Prezident, çox sağ olun ki, xalqımız üçün böyük işlər görürsünüz. Biz görürük ki, bu gün bütün dünya ölkələri çətinliklərlə üzləşib. Amma Sizin və Mehriban xanımın sayəsində biz bu çətinlikləri o qədər də hiss etmirik. Sizin davamlı qayğınızla ölkəmizin hər yerində olduğu kimi, Lənkəranda da böyük işlər görülür. Koronavirus pandemiyası ilə əlaqədar bizim şəhərdə də lazımi tədbirlər həyata keçirilir. Biz bundan çox razıyıq. Bu günlərdə bizim yaşadığımız M.Hüseynzadə küçəsinin asfaltlanması bizi çox sevindirdi. Bunu çox arzulayırdıq. Çox sağ olun, cənab Prezident. Biz Sizə inanırıq. İnanırıq ki, Sizin rəhbərliyinizlə biz bütün arzularımıza çatacağıq. Sizə bir daha minnətdarlığımızı bildiririk".

Gədəbəy rayonunun Əyrivəng kəndindən **Söhbət Tağıyev:** "Cənab Prezident, Gədəbəy rayonunun Əyrivəng kəndi düşmənlə sərhəddə yerləşən kəndlərimizdən biridir. Bu gün Əyrivəng kəndində elektrik xətlərinin, işıq dirəklərinin, transformatorların yenilənməsi sakinlərin hədsiz sevincinə səbəb olmuşdur. Respublikamızda, o cümlədən Gədəbəyimizdə və Əyrivəng kəndində görülən işlərə görə kənd sakinləri adından Sizə təşəkkürümüzü bildiririk. Tanrı Sizi və Azərbaycanımızı qorusun!"

Naftalan şəhərindən **Adilə Bağırova:** "Möhtərəm cənab Prezident, Sizin Tərtər rayonuna səfəriniz zamanı Dövlət Rəmzləri Muzeyinin açılışında iştirak edərkən maskadan istifadə etməyiniz hər bir Azərbaycan vətəndaşı üçün nümunədir. Hər bir vətəndaş öz şəxsi məsuliyyətini dərk etməli, Operativ Qərargahın tələb və tövsiyələrinə əməl etməlidir. Həmçinin həftə sonları tam qapanma vətəndaşların sağlamlığını qorumaq məqsədi daşıyır. Bu ağır vəziyyətdə ölkəmizdə görülən işlərə, bütün sosial-iqtisadi layihələrin həyata keçirilməsinə və hər zaman Azərbaycan vətəndaşının yanında olduğunuza görə kurort şəhərimiz Naftalanın sakinləri adından Sizə sonsuz məhəbbətimizi və hörmətimizi bildirirəm. Ulu Tanrı Sizi, ailənizi və millətimizi qorusun!"

Ağcabədi rayonundan **Ruxsarə Nəsirova:** "Möhtərəm cənab Prezident, Ümummilli Liderimiz Heydər Əliyevin layiqli davamçısı kimi Sizin gördüyünüz işlər biz ziyalıları çox sevindirir. Gənclərlə, şagirdlərlə görüşlərimizdə ürəkdolusu danışmağa, misallar çəkməyə, saysız-hesabsız nümunələr göstərməyə kifayət qədər faktımız olur. Bütün bu işlər Sizin gərgin zəhmətinizin, əzmkarlığınızın, xalqa olan sevginizin nəticəsidir. Hazırda dünyamızın çox ağır bir vəziyyətlə üzləşdiyi, amansız xəstəliklə mübarizə apardığı vaxtda ölkəmizdə dərhal qabaqlayıcı tədbirlərə başlanıldı. Əhaliyə dəfələrlə çağırışlar etdiniz, bizi bu çətin durumda bir-birimizə dəstək olmağa, dünyanı sarsıdan görünməz düşmənə birlikdə qalib gəlməyə səslədiniz. Sizin xalqın yanında olmağınız, onu gözləyən təhlükəyə görə keçirdiyiniz narahatlıq, bununla bağlı həyata keçirdiyiniz tədbirlər Sizə olan inamı daha da artırdı. İyunun 3-də Ağcabədi rayonuna səfəriniz bizi çox sevindirdi. Ağcabədi rayonunun Sarıcalı kəndində 360 şagird yerlik yeni ümumtəhsil məktəbi binasının tikintisi üçün vəsaitin ayrılması təhsilimizə, gələcəyimizə göstərdiyiniz qayğının nümunəsi idi və bu, biz ziyalıları çox sevindirdi. Cənab Prezident, biz Sizə inanırıq və güvənirik. Ulu Tanrı Sizi qorusun!"

Tərtər rayonundan **Faiq Məmmədov:** "Hörmətli cənab Prezident, Tərtər rayonunun idmançıları adından Sizi ürəkdən salamlayır, rayonumuzda möhtəşəm olimpiya idman kompleksini bizə bəxş etdiyinizə görə Sizə minnətdarlığımızı bildiririk. Bütün dünyanı koronavirus pandemiyası ağuşuna aldığı bir vaxtda Siz Mehriban xanımla birlikdə yeni sosial layihələrin həyata keçirilməsini dayandırmadınız. Tərtərdə istifadəyə verilmiş olimpiya idman kompleksi bunun bariz nümunəsidir. Biz gənclər Sizin idmana göstərdiyiniz diqqət və qayğını həmişə hiss etmişik, bu gün də hiss edirik. Cənab Prezident, Tərtər idmançıları adından söz verirəm ki, yeni istifadəyə verilmiş olimpiya idman kompleksində daha həvəslə məşq edəcək, sıralarımızı gənc idmançılarla genişləndirəcək, yeni uğurlara imza atacağıq. Tanrı Sizi və ailənizi qorusun!"

Bakının Xəzər rayonundan **Extiyar Əzizov:** "Hörmətli Prezident, cənab Ali Baş Komandan, COVID-19-un dünyanı cənginə aldığı bir vaxtda Sizin iti zəkanız, uzaqgörən siyasətiniz sayəsində görülən qabaqlayıcı tədbirlər nəticəsində bu qorxulu bəlanın ölkəmizdə geniş yayılmasının qarşısı vaxtında alındı. Əks təqdirdə, bu bəlanın fəsadları daha böyük olardı. Bu çətin və ağır günlərdə Siz birinci xanım Mehriban Əliyeva və bütün ailə üzvləriniz ilə birlikdə böyük fədakarlıq, hünər göstərərək xalqınıza arxa, dayaq oldunuz. Xalqın sağlamlığını iqtisadiyyatından üstün tutmağınız, aztəminatlı ailələrə göstərdiyiniz maddi və mənəvi dəstək Sizin xalqa olan dərin məhəbbətinizin təzahürüdür. Xalqımızın rifahı, vətənimizin inkişafı naminə gördüyünüz bütün işləri yüksək qiymətləndirir və Sizi dəstəkləyirəm. Gördüyünüz işlərə görə şəxsən öz adımdan, həmçinin çalışdığım Bakı abadlıq şirkətinin bağbanları adından Sizə təşəkkür edir, cansağlığı arzulayıram. Qoy, Ulu Tanrı Sizləri qorusun!"

# Baş Nazir Əli Əsədov Belarusun yeni Baş Nazirini təbrik edib

**Azərbaycan Respublikasının Baş Naziri Əli Əsədov Roman Qolovçenkoya Belarus Respublikasının Baş Naziri təyin edilməsi münasibətilə təbrik məktubu göndərib.**



Nazirlər Kabinetinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Baş Nazir Əli Əsədov möhkəm dostluq, əməkdaşlıq və qarşılıqlı dəstək ənənələrinə əsaslanan Azərbaycan-Belarus münasibətlərinin yüksək səviyyəsinin xüsusi məmnunluq doğurduğunu bildirib.

Baş Nazir Azərbaycan ilə Belarus arasındakı qarşılıqlı faydalı əməkdaşlığın və strateji tərəfdaşlığın birgə səylərlə bundan sonra daha da möhkəmlənəcəyinə və genişlənəcəyinə əmin olduğunu bildirib.

# Karantin qaydalarına hamımız əməl etməliyik

Hər yerdə olduğu kimi, Azərbaycanda da koronavirusla mübarizə davam edir. Keçən aylarda bu mübarizədə uğurlarımız var idi, karantin qaydalarının tətbiqi nəticəsində xəstələrin sayını və ölüm hallarını aşağı səviyyədə saxlamaq mümkün idi. Ancaq karantin qaydalarını uzatmaq iqtisadiyyatımızın problemlərini artıra bilərdi, iş yerlərinin açılması və ticarətin başlanması zəruri idi. Ancaq may ayının ortalarından başlanan yumşalma xəstə sayını yenidən artırdı. Vəziyyət o həddə çatdı ki, mart və aprel ayında gündəlik xəstə sayı 40-50 nəfər idisə, mayın sonu və iyun ayının başlanğıcında say 3 rəqəmliyə keçdi və hazırda xəstə sayı 250-350 nəfərə çatır. Bu baxımdan yenidən sərt tədbirlər görülməsəydi, vəziyyət nəzarətdən çıxa bilərdi. Bu isə o demək olacaqdı ki, mövcud xəstəxanalarımızda boş yer qalmayacaqdı. Nazirlər Kabineti yanında Operativ Qərargah şənbə və bazar günlərində vətəndaşlara evdən çıxmağı qadağan etdi. Başqa alternativimiz yox idi. Qardaş Türkiyə də bir neçə ay bu üsuldan istifadə edib və müsbət nəticələrini görüb. İnanıram ki, şənbə və bazar qadağasının yaxın günlərdə müsbət nəticəsini biz də görəcəyik. Karantin rejiminin tələblərinə hər birimiz əməl etməliyik.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Milli Məclis Sədrinin müavini Adil Əliyev söyləyib.

O qeyd edib ki, vətəndaşlarımızın mütləq əksəriyyəti şənbə və bazar günü bayıra çıxmaq qadağasına riayət etdi. Çünki hamımız başa düşürük ki, sərtləşən qaydalar özümüzü, ailə üzvlərimizi və bütövlükdə Azərbaycanımızı qorumaq üçündür. Ancaq təəssüf ki, xoşagəlməz hallarla da üzləşdik. "Operativ Qərargah şənbə və bazar günü qadağasını ötən həftənin əvvəlindən elan etmişdi. Yəni iki gün qadağasına riayət etmək üçün ərzaq tədarükü görmək üçün kifayət qədər zaman var idi. Ancaq cümə günü marketlərdə növbələr yarandı, çörək piştaxtaları boşaldı. Əlbəttə, böyük ailələr var və onlar iki günlük çörək tədarükü görməli idilər. Ancaq internetdə yayılan bir görüntüyə reaksiya verməyə bilmərəm. Taxta səbətdəki çörəklər dükanın qapısından içəri keçməyə macal tapmadan havada uzanan əllər tərəfindən anında boşaldılırdı. Kim əlinə nə qədər çörək yığa bilirdisə, o qədər daşıyırdı. Azərbaycan müharibə şəraitindədir və hər zaman da vurğulayırıq ki, torpaqlarımızı işğaldan azad etmək üçün savaşa hazır olmalıyıq. Müharibə şəraitində isə hər bir çətinliyə və sınağa dözməli olacağıq. 2016-cı ildə 4 günlük savaş günlərində həmin sınaqdan üzüağ çıxdıq. Savaş yenə olarsa, növbəti sınaqdan da üzüağ çıxmalıyıq. Odur ki, dükanlarda çörək piştaxtalarının boşaldılması görüntüsü bizə yaraşmadı. İki gün keçib və marketlər yenə açıqdır, kimsə çörəksiz və ya ərzaqsız qaldımı? Bu sual cümə günü torbalarını yeyə bilməyəcəyi qədər çörək və ərzaqla dolduranlara aiddir. Nəzərə alın ki, bu həftənin sonunda da növbəti dəfə bayıra çıxmaq qadağası tətbiq oluna bilər. Eyni görüntülərin təkrarlanması bizə başucalığı gətirməyəcək. Bununla bərabər düşünürəm ki, eyni səhvin təkrarlanmaması üçün insanlarımız arasında təbliğat işinin gücləndirilməsinə ehtiyac var. Unutmayaq ki, düşmən də bu görüntüləri izləyir və informasiya savaşında bizə qarşı istifadə edə bilər, - deyə A.Əliyev vurğulayıb.



Sədr müavini qeyd edib ki, şənbə və bazar günü qadağası polisimizin üzərinə böyük məsuliyyət qoyurdu. Çünki polis karantin qaydalarına əməl olunmasına nəzarət etməli idi. Məsuliyyətli vətəndaşlarımız kimi polisimiz də bu sınaqdan üzüağ çıxdı. Ancaq qaydalara riayət etməyənlər və aranı qarışdırmaq istəyənlər yenə tapıldı. İnternetdə yayılan görüntülərin birində polis qanuna riayət etməyən vətəndaşımızı polis məntəqəsinə aparmaq istədikdə müqavimətlə üzləşir, bəziləri eyvandan polislərin üzərinə müxtəlif əşyalar atırlar. Polisə iş başında müqavimət göstərmək, onun üzərinə əşyalar atmaq, söymək dünyanın hər yerində olduğu kimi, Azərbaycanda da qanun pozuntusu sayılır. Bunu edənlər düşünməsinlər ki, cəzasız qalacaqlar. Bir neçə gün əvvəl metroda da bənzər olay baş vermişdi. Qərar qəbul olunub ki, metroda maska geyinilməlidir, virusdan ancaq bu cür qorunmaq olar. Polis maskasız vətəndaşı çıxartmağa çalışdıqda bir neçə nəfər polisə müqavimət göstərdi. Daha sonra həmin şəxslər müəyyənləşdirilərək məsuliyyətə cəlb olundular. Eləcə də bazar günü polisin üzərinə müxtəlif əşyalar atanlar müəyyənləşdirilərək məsuliyyətə cəlb olunublar. Çünki bu tədbirlər görülməsə, qanunlarımızı heçə saymış olarıq və başqaları da qanunsuz əməllərinə görə cavabdehlik daşımayacaqlarını düşünə bilərlər. Fədakar polislərimiz bizlərdən biridirlər, qanunun keşiyində dayanıblar, hər zaman bizə əl tutmağa da hazırdırlar. Təsadüfi deyil ki, şənbə və bazar günləri sosial şəbəkələrdə yayılan görüntülərdə polisimiz nümunəvi hərəkətləri ilə yadda qaldı. Polis maşını ilə yoldan keçən yaşlı qadının bacısının dəfninə aparılmasından tutmuş piştaxtaların boşaldılması səbəbindən çörək almağa macal tapmayan vətəndaşımızın evinə çörək aparan polisimizə qədər müsbət nümunələr gördük. Ancaq kim ki, bu iki gündə qaydalara riayət etməyib, qadağalara məhəl qoymayıb, polisə müqavimət göstərib, onlar məsuliyyətə cəlb olunublar. Biz hüquqi dövlətdə yaşayırıqsa, qanunlara tabe olmalıyıq. Polis isə qanun keşikçisidir.

Radikal müxalifətin bu məsələdə də öz simasını göstərdiyini söyləyən Adil Əliyev deyib: "Dünəndən polisə müqavimət görüntülərini "qəhrəmanlıq nümunəsi" kimi internetdə yayırlar və şərhlərdə nalayiq ifadələr işlədirlər. Metroda məlum hadisə baş verəndə xaricdə kök salmış saytlardan biri görüntünü sevincək halda "polisi vaqondan qovdular" başlığı ilə yaydı. Amerikada kök salmış radikal müxalifətin nümayəndələrindən biri isə Yeni Yasamalda polisə müqavimət görüntüsünü alman faşistlərinin əməlləri ilə "müqayisə" edib. Həmin radikal yaşadığı Amerikada qaradərililərin polis tərəfindən vəhşicəsinə öldürülməsinə reaksiya vermək əvəzinə, polis soydaşını ləkələməyə çalışır. Keçməz. Azərbaycan polisi vətəndaşı qanuna riayət etməyə çağırır, bu olmadıqda qanunun ona verdiyi imkanlar çərçivəsində hərəkət edir, daha "amerikalı polis kimi boğulana qədər kimsənin boğazını sıxmır".

İstənilən hakimiyyət qanun-qaydanın yaradılmasına və bunu təmin edən güclü polisin olmasında maraqlıdır. Siz necə hakimiyyətə iddialısınız ki, polisə müqaviməti və bununla aşkar qanunsuzluğu dəstəkləyirsiniz? Demək, siz qayda-qanunda deyil, anarxiyada maraqlısınız. Həmin anarxiyanı cəmiyyətimiz sizin 1990-cı illərin əvvəllərində hakimiyyətdə olduğunuz qısa dövrdə gördü və bir daha təkrarlanmasını istəmir. Əgər siz vətəndaşları düşünürsünüzsə, insanları polisə müqavimət göstərməyə, xaos yaratmağa deyil, virusun yayıldığı dövrdə insanları maska taxmağa və sosial məsafəni qorumağa dəvət etməli idiniz. Ancaq siz bu adi çağırışı da etmirsiniz, çünki sizin dərdiniz insanlarımızı qorumaq deyil, ölkəni xaosa və anarxiyaya sürükləməkdir. "Dövlətin və xalqın problemləri nə qədər artarsa, bizim üçün bir o qədər yaxşı olar" - bu, sizin həyat prinsipinizdir və dəyişməz olaraq qalır. Ancaq nahaq əziyyətdir. Əlbəttə, ölkəmizdə hər şey ideal deyil, müəyyən qüsurlar var, onlarla mübarizə aparılır. Sizin siyasətiniz isə bizi keçmişə qaytarmağa köklənib, bunu isə mütləq çoxluq istəmir".

# Azərbaycanda koronavirusa daha 323 nəfər yoluxub, 228 nəfər sağalıb

Azərbaycan Respublikasında koronavirus infeksiyasına daha 323 yeni yoluxma faktı qeydə alınıb, 228 nəfər müalicə olunaraq sağalıb və evə buraxılıb.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 5 nəfər vəfat edib.

Hazırkı dövrədək ölkəmizdə 7876 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 4377 nəfər müalicə olunaraq sağalıb, 93 nəfər vəfat edib. Aktiv xəstə sayı 3406 nəfərdir.

Ötən müddət ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 343 min 391 test aparılıb.

# Azərbaycanda bu kişilərə ödənişli məzuniyyət verilməsi təklif olunur

Əmək Məcəlləsində dəyişikliklər edilməsinə dair Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən hazırlanmış yeni qanun layihəsində əmək məzuniyyətləri ilə bağlı yeni təkliflər əksini tapır.

Nazirliyin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, təkliflərdən biri - Əmək Məcəlləsinin 125-ci maddəsinə dəyişiklik edilməklə, hamiləliyə və doğuşa görə həyat yoldaşı məzuniyyətdə olan kişilərə doğuş gününə təsadüf edən ərəfədə səhiyyə müəssisəsinin arayışı əsasında 14 təqvim günü müddətində ödənişli məzuniyyət verilməsidir.

Təcrübədə bəzi hallarda işçilər əmək məzuniyyətindən istifadə etmir. Bu da uzun illər yığılmış istifadə edilməmiş məzuniyyətlərə görə sonralar kompensasiyanın ödənilməsində işəgötürən üçün iqtisadi çətinlik yaranmasına səbəb olur. Ona görə də Məcəlləyə daha bir təklifdə işçilərin əmək məzuniyyətinin əsas hissəsindən iş ili ərzində mütləq istifadə etmələri tələbi yer alıb.

◆ Yazıçı və həyat

**Gözlənilməz vəziyyətdən özünü itirmiş insanlar uşaqlıq çağlarındakı ilk günahlarımızı - tapdağımız altında qalıb başılovlu ora-bura vurnuxmağa başlayan qarışqaları yadıma salır...**

**Yerə-görə sığmayan iddialarımıza, hikkəmizə, dünyanı soyulmuş isti yumurta kimi bircə uduma yeyib-bitirmək iştahımıza rəğmən, əslində, kainatda nə qədər xırda olduğumuzu bir daha fərq edirəm.**

**İstəyirəm, bütün bəşəriyyətə üz tutub deyəm ki, ey bəni adəm, cancüssəmiz aşağı-yuxarı elə bundan ibarət deyilmi?!.**

**Nə olsun yeganə şüurlu varlığıq?!.**

**Nə olsun, Yaradan bizi Yer üzünün əşrəfi kimi xəlq edib?!.**

**Həyatın bütün suallarına cavab vermək zəkasında sanırıq özümüzü...**

**Amma görürsünüz yenə də elə bəlalar var ki, dünyamızı bircə anın içində məhvərindən çıxarar, həyatımızın nizamını, düzənini pozar, əcdadlarımızdan üzübəri yol verdiyimiz yanlışların bədəlini bircə-bircə çırpar üzümüzə, naçar qalarıq.**

**O zaman nədir bu etdiklərin?!.**

**Nədir bu dünyanı çəpər-çəpər bölməyin?!.**

**Müxtəlif miflər uydurub özünü başqalarından ayırmağın, bir-birinə qənim kəsilməyin, qan tökməkdən, dağıdıb-tökməkdən yorulmazlığın?!.**

**Eheyy!!!**

**Eşidən var...(mı?!)**




*Qanı qaralmış, ovqatı təlx olmuş dünyanın sarfa alça kimi turş sifətinə baxıram, canının necə sıxıldığını duyuram... Qəfil hiss edirəm ki, dünyanın bu halı mənə sanki haradansa tanışdır, elə bil kimsə bu cümlələri qulağıma pıçıldayır... Pıçıltı getdikcə güclənir, divarlardan kənara adlayıb, dünyadakı bütün dağlara, daşlara, koğuş dərələrə dəyib əks-səda ilə yenidən özümə qayıdır.*

İnsan övladının əməl dəftərində saysız-hesabsız müharibələrin, hələ tarixin daha qədim qatlarına enməsək, tək elə ötən əsr ərzində törədilmiş iki cahan savaşının, indi zamanın bəri üzündən baxanda adama mənasızdan da mənasız görünən ideologiyalara, məqsədlərə görə milyonlarla insanın ömrünün kəsilməsinin, tifaqının dağılmasının günahları var.

İnsan Yer üzündə binə olandan bəri əli nə qədər həmcinsinin, başqa canlıların qanına batıb, nə qədər cinayətlər törədib, nə qədər mənəviyyatsızlıqlara qol qoyub, təbiətə, ətraf aləmə nə qədər sitəmlər edib, başqaları hələ bir kənara dursun, özünə, öz sağlığına necə qənim kəsilib, - zamanın yaddaşı bu qədər günahı xatırlamaq gücündə belə deyil.

**Amma yenə də bir yerdə dururuqmu?!.**

**Öz-özümüzə, "Daha bəsdir! Yetər!" deyirikmi?!.**

*Adəm övladı, Qabilin öz qardaşı Habili qətlə yetirdiyi yüz min illər əvvəl də öz yanlışlarından zərrə qədər dərs götürmədi, bu gün də belə bir niyyətdə görünmür və etdiyi günahların bədəlini zaman-zaman ödəyir, sabah da yanlışlarını təkrarlayacaqmı, yoxsa haqq yolunu tapacaqmı, bilən bilməz...*

**Hərdən düşünürəm ki, koronavirus kimi qlobal bəlalar bəlkə elə etdiklərimizin cəzasıdır?!.**

Tanrının səmavi kitablarla göndərdiyi ismarıcları qulaqardına vurmağımızın, müəyyən etdiyi Haqq yolundan sapmağımızın əvəzidir?!.

*Yaradanın hökmü, hikməti bəndəsinə göndərdiyi son kitabında - "Qurani-Kərim"də belə təcəlla edir:* **"And olsun ki, sizi bir az qorxu, bir az aclıqla, mal-dövlətdən, canlardan və məhsullardan azaltmaqla imtahan edəcəyik"...**

Bəndələrini yanlışlardan çəkindirməkdən ötrü Tanrı ismarıclarını onlara daha bəs necə çatdırsın?!.

❖❖❖

Son bir neçə onillikdə Yer üzündəki canlıların 30 faizi məhv olub. İçməli su ehtiyatlarının həcmi 26 faiz azalıb. Meşə sahələri kiçilib, atmosferdə zəhərli qazlarınhəcmi 62 faiz artıb.

*"Bu problemlər tezliklə bütün insanlar üçün böyük əzablara səbəb ola bilər" deyən alimlərin gözlədikləri, deyəsən, artıq başımıza gəlir... Daha çox qazanmaq, sərvət əldə etmək ehtirası ilə torpağın bərəkətinə əl uzatmağımızın, çörəyin bərəkətinə ağu qatmağımızın, mer-meyvəni, bitkiləri əlimizə keçən min bir kimyəvi maddə ilə zəhərlədikcə zəhərləyib, üstəlik təbiətdə hərəsinin öz yeri olan günahsız canlıları da məhv etməyimizin qarşılığı bu cür pandemiyalar şəklində dönür həyatımıza.*

Di gəl ki, bir də görürsən, Bakıda hansısa tikinti şirkəti bir az pul qazanmaqdan ötrü səkidəki xeyli ağacın dibini betonlayıb, onları bu yolla qurudub sonra kəsmək üçün Allahın dilsiz-ağızsız ağaclarına qarşı namərdliyə əl atıb.

Yaxud, bu çətin günlərdə insanlar sıxıntı çəkməsinlər deyə, dövlətimizin, Prezidentimizin ayırdığı sosial yardımları yerlərdə mənimsəyən məmurların yaramazlığı, Heydər Əliyev Fondunun aztəminatlı ailələrə göndərdiyi ərzaq sovqatlarını xəlvətə salıb sonra satmaq üçün qohum-əqrəba evlərində gizlədən səlahiyyət yiyələrinin mənəviyyatsızlığı...

*Hələ dünyada insanlığın rəzaləti olan elə bədnamlıqlar yaşanır ki, bəşər övladı öz miskin əməlləri, sərvət ehtirasları ilə o qədər çirkinlikləri özünə yaraşdırır ki...*

**Hansından yazasan, hansına diqqət yönəldəsən?!.**

*Birdirmi, beşdirmi, belə əməlləri rəva bilənlər, ətrafda gözə dəyən, ayaqda duran nə varsa hamısını pul gözündə görənlər, pul rəngində, pul biçimində qavrayanlar...*

❖❖❖

**Dünya qopur... (?!)**

***Dolur və boşalır dünya...***

Bir başında tufan, zəlzələ, o biri başında külək, qasırğa, sunami... Birində aclıq birində toxluq... Ya insanın əhdini kəsən boğucu, zəhərli hava, qışda yay, yazda ölüm gətirən fırtına...

Tümurcuqları afat vurur, çiçəklər doğulmadan ölür...

BÖYÜK TANRI insaları və insanlığı bəs necə cəzalandırsın?!

Yuxular görən insanı, tək və cüt səbirlər gətirən insanı, dualar qılıb münəccimlik edən bəşər övladını daha hansı mesajlarla anlada bilsin?!.

Son bir neçə il ərzində dünyadakı banklar dayanmadan elə hey pul buraxır, hər kəs ara-sıra yaranan iqtisadi böhranların artıma mane olacağından qorxur və pulkəsən maşınlar dayanmadan işləyir, trilyonlarla əsginaslar - dollar, avro, yuan çap edilir, iqtisadi sistem ucuz kreditlərlə doldurulur.

Köpük şişdikcə şişir...

**Arxasında da heç bir güc, real iqtisadiyyat, ciddi resurslar yox...**

Əgər laboratoriyalar onlara bəslənilən ümidi köpük partlayana qədər doğrultmasalar, bəşəriyyəti çox çətin dövrlər gözləyir.

*Təməlində gələcəyə ümiddən başqa heç nə durmayan, "bəlkə yaxşı oldu" düşüncəsi ilə üfürülən bu sabun köpüyü partlayanda insanların gündəlik həyatının necə olacağını isə adam təsəvvür etməyə belə qorxur.*

**Bu, təhlükənin ayaq səsləridir bəlkə?!**

❖❖❖

**İnsanlıq pulu-paranı, maddi sərvətləri bu qədər böyük dəyərə çevirməməli idi...**

***Özünü iqtisadiyyatın durmadan böyüməsindən bu qədər asılı hala salmamalı idi.***

Azad bazar iqtisadiyyatı adlandırdığımız - əslində isə sərt üzü bizə, uşaqlığı sovet məktəblərində keçmiş orta və yaşlı nəslin nümayəndələrinə dərsliklərimizdən yaxşı tanış olan kapitalizmin bu qədər tənəzzül həddinə gəlməsinin qarşısını, bəlkə necəsə almaq olardı.

*Bütün vəziyyətlərdə, bütün şəraitlərdə özünün mənəvi aləmini qorumaq, başqalarına sevgisini, şəfqətini mühafizə etmək, mənəviyyatını uca tutmaq, mənəvi dəyərlərə sitayiş etmək, ideyalara can atmaq insanın əbədi ali missiyasıdır axı...*

**Bizsə, maddi sərvətləri həyatımızın əsas məqsədinə çevirdik, minillərdən bəri yol gələn dəyərlərə asi çıxdıq, vicdanımızın səsini içimizdə söndürdük sanki, bununla mənəvi dünyamıza açılan qapı da kilidləndi...**

***İnsanlığın dahiyanə kəşfləri Nobel alsa da, mahiyyət etibarilə insanlığın sonunamı xidmət etdi?!***

***Sərhəd tanımayan ölümləri kim yaratdı?!***

*"Atom bombasının atası" adlandırılan Robert Oppenheymer boğaz xərçəngindən ölərkən deyib:*

***"Mən ölümə çevrilmişəm... Mən dünyanın dağıdıcısıyam!.."***

*Gözümüzü qamaşdıran texnoloji möcüzələr yolumuzu yanıltdı.*

Texnologiyalar bizə həyatımızı asanlaşdırmağa, oxumaq, öyrənmək, fərdi inkişaf, keyfiyyətli düşüncə mühiti üçün ömürdən daha çox zaman ayırmağa, dünyanı mobilləşdirib məsafələri aradan götürməyə, bizi bir-birimizə daha da yaxın etməyə, doğmalaşdırmağa lazım idi.

Amma nə baş verdi?!

*Texnologiyaların ortaya qoyduğu elektron məktublar, SMS-lər, sosial şəbəkələrdən göndərilən ismarıclar yeniyetməlik, gənclik dövrümüzün hər sətrində insan qəlbinin döyüntüsü eşidilən, insan ruhunun həniri duyulan ƏTİRLİ SEVGİ MƏKTUBLARİNİ əlimizdən aldı.*

**Tək bumu?!.**

**Ucsuz-bucaqsız, bomboz dünyanın ortasında sanki təkbaşına qaldıq.**

**Paramparça, hissiz, duyğusuz, xəyalsız...**

İndi mobil telefonun bircə düyməsini sıxmağın yetər ki, dünyanın harasında olmasından asılı olmayaraq, istədiyin adamın səsini eşidəsən, üzünü görəsən, kəsintisiz, xışıltısız, sanki yanındaymış kimi apaydın...

Amma, məni qınamayın, mobil telefonların, doğru-dürüst əlaqə vasitələrinin olmadığı o uzaq illərin adamları bir-birini indikindən daha çox itirib axtarırdılar, bir-birinə indikindən daha çox doğmalıq göstərirdilər, ünsiyyəti, yaxınlığı indikindən daha çox qoruyurdular.

**Onda hələ texnologiyalar həyatımızda sevginin yerini daraltmamışdı, ömrümüzdə daha çox sevgiyə yer vardı...**

**Cihazlar artdıqca, SEVGİ həyatımızın bir küncünə sığındı, fiziki mənada məsafələr qısaldıqca, insanlar bir-birindən uzaq düşdü, yollar abadlaşdıqca, hamarlandıqca insanlar arasındakı mənəvi uçurumlar böyüdü elə bil...**

*Hərənin əlində bir "ağıllı" telefon, planşet, insanlar bir-birinin gözlərindən çox, monitora baxırlar, bir damın altında bir-birinə yadlaşıb gedirlər.*

*Gözlər qəlblərə körpü salmır, ürəkdən-ürəyə yollar görünmür, virtual kommunikasiyalar adamları bir-birindən iraq salır, ünsiyyət imitasiyası münasibətləri soyuqlaşdırır, müasir insan üçün ciddi sosial-psixoloji problemlər yaradır. İnsan özü də hiss edilmədən robotlaşır, hisslərini, duyğularını əldən verir, texnologiyaların bir parçasına çevrilir.*

**Artıq insan texnologiyaları deyil, texnologiyalar insanları idarə etməyə başlayır...**

**Bəşəriyyət üçün Allahlıq iddiasına düşür...**

**Dinlərin, inancların yerini tutmağı hədəfləyir...**

İnsan öz fərdi məlumatlarını, şəxsi sirlərini könüllü şəkildə hansısa görünməz mərkəzlərə təslim edir, fərqinə varmadan onların köləsinə çevrilir, bu mərkəzlərin müxtəlif texnoloji həllər vasitəsilə onun həyatını, taleyini, seçimlərini idarə etməsinə şərait yaradır.

Hansısa saytda bir material oxumağa peşmansan, dərhal onun böyründə həmin materialla yaxından-uzaqdan necəsə əlaqəsi olan məhsulun, xidmətin reklamı çıxır.

Deməli, özümüz də hiss etmədən, ciddi şəkildə izlənirik, təhdid olunuruq.

Bütün həyatımız Yerin, göyün sahibi Allahla yanaşı, hansısa texnologiyalar tanrısının da rəqəmsal nəzarəti altındadır.

Hərdən indiki gənclərə baxıram, onların sevgisini, ilk eşq etiraflarını, duyğularını bir-birinə necə çatdırdıqlarını, sevgi hekayələrini, həyəcanlarını təsəvvür etmək istəyirəm...

**Elə bilirəm ki, daha heç o sevgilər də qalmayıb, o hisslər, etiraflar, əhd-peymanlar, paylaşılan dəyərlər illər əvvəlki qədər saf, səmimi, munis deyil.**

Həyatımız kimi gənclərin sevgiləri də texnolojiləşib, süniləşib, həyatın ilk sınaqlarındaca çilik-çilik olub sıradan çıxır, yerini başqa istəklər, iddialar, dəyərlər tutur, sevgi zənn edilən hisslər bir anda nifrətə, qarşılıqlı ittihamlara çevrilir.

*O çağların saf sevgiləri, gənclərin ən çətin məqamlarda da öz əhdlərinə, bir-birinə sadiqliyi qalsaydı, qurulmuş gənc ailələr ilk mübahisədəncə məhkəmələrin yolunu tutmazdılar, boşanmaların statistikası ildən-ilə bu qədər artıb təhlükəli hala gəlməzdi, ailə institutu əcdadların əmanəti olan möhkəm təməlli alınmaz qalalardan, kiçilib kövrəkləşib səhrada evcik kimi düzəldilmiş qum təpəciklərinə çevrilməzdi.*

Hələ, indi beşiklərdə qığıldayan, oyuncaqları ağıllı telefonlar, planşetlər olan, həyət-bacaya, həmyaşıdları ilə oynamağa çıxmayıb əlindəki telefona qapılıb qalan, baxdıqları cizgi filmlərinin, videoların aşıladığı ideyanı, verdiyi tərbiyəni tam nəzarətdə saxlamaq imkanında olmadığımız, ədəbiyyatdan, dilin zənginliyindən uzaq düşən körpələrimizin, nəvənəticələrimizin dünyası necə olacaq - Allah bilir...

❖❖❖

**Son illərdə bütün dünyada hansısa ciddi bir ədəbiyyat hadisəsinin baş verməsi, adamı silkələyən bir mahnı parçasının, filmin, teatr tamaşasının yaranması yadınıza gəlirmi?!.**

Daha ədəbiyyat, mədəniyyət insanları tərbiyə edə bilmir, tiplər, xarakterlər yaradıb onların nümunəsində insanları tərbiyələndirmək gücünü itirib. Toplumun səviyyəsini mənəvi ideallara doğru yüksəltməli olan yaradıcılıq dəyərlərinin özü bazar səviyyəsinə enib, piştaxta arxasında durmuş satıcı kimi matahını müştəriyə tərifləyir. Öz vəzifəsini, ali missiyasını kənara qoyub müştərinin istədiklərindən yazır, həyatın bədii obrazlarla dərkindən daha artıq necə çox satılmaq qayğısındadır. Baxırsan, böyük təmtəraqla təqdim edilən, ətrafında hay-küy yaradılan bir əsərdir, filmdir, amma alıb oxuyanda, baxanda görürsən ki, içi bomboşdur.

**Böyük sənətin də pulun, bazarın əsarətinə düşməsinin acı mənzərəsi...**

*Cəmiyyətin aynası missiyasını yerinə yetirməli olan mətbuat da eləcə...*

Saxta xəbərlər bütün dünyada aləmi başına götürüb, oxucu, tamaşaçı, dinləyici nəyin doğru, nəyin yanlış olduğunu müəyyən etməkdə böyük çətinlik çəkir, media yüz illər ərzində cilalanmış, konkret qaydaları, normaları, sosial məsuliyyət meyarları müəyyənləşmiş fəaliyyət prinsiplərini kənara qoyub bazarın tələblərinə uyğun davranır, sosial şəbəkələrdəki çox keyfiyyətsiz auditoriyanın rəğbətini qazanmağa can atır, özünü də, sözünü də urvatdan salır.

Bu auditoriyanın guya ən çox izlədiyi bloqçuların, yazarların səhifələrinə baxırsan, kütlələrə çatdırmaq istədiklərinə nəzər yetirirsən, cəmiyyət üçün qara qəpiklik dəyəri olmayan mənasız atmacalar, çayxana lağ-lağıları, şit-şit irişmələr, özünü izləyicilərə sevdirmək üçün ucuz üsullar...

*Hara nəzər yetirirsən, ucuz reklam, zahiri bərbəzək, istehlakçının başını tovlayıb alış-verişə sövq etmək, pulunu əlindən almaq üçün düşünülmüş hiyləgər marketinq fəndləri...*

**İnsan bəlkə heç özü də fərqinə varmadan çox bahalı bir dünya yaradıb və özünü bu dünyaya məhkum, əsir edib.**

*İnsan belə bir reallıqda puldan, maddi gəlirlərdən başqa daha heç nə düşünə bilmir, daha çox istehlak etməkdən ötrü özünü daha çox oda-közə vurur, doğmalarını, yaxınlarını unudur, hissləri korşalır, mənəvi dünyasını qorumağa zamanı, enerjisi qalmır...*

***Pul insan üçün daha vasitəyə deyil, ali məqsədə çevrilir...***

❖❖❖

**Daha mənəvi idealları və bu idealları, bəşəri dəyərlər, Vətən uğrunda canından keçən qəhrəmanları az yada salan var.**

Hamı uğur hekayələri oxuyub birdənbirə, qəfildən uğur qazanmağa, pullanmağa çalışır. Bu baş verməyəndə isə yaşadığı cəmiyyətə də, dünyaya da, özünə də asi çıxır.

*İnsanlar narahatdırlar, gərgindirlər, stres içindədirlər, ürəkdən gülə bilmirlər, ilk baxışdan həyatda sanki hər şey qaydasında görünür, bolluqdur, nə istəyirsən var, amma yenə də elə bil insanın həyatında nəsə çatmır...*

**O çatışmayan hissin adı Xoşbəxtlikdir!..(mi?!.)**

*İnsanlar bu qədər gərginliyin, stresin, narahatlığın içində xoşbəxt ola bilmirlər, bu hissi doya-doya yaşamağa əlləri yetmir.*

Kimsə fərqinə belə varmaq istəmir ki, axı həyatımızda hər il yeni bir nəsli çıxan və adamları hər il ehtiyac belə olmadan onların yenisini almağa sövq edən bahalı mobil telefonlardan, məişət cihazlarından, son model avtomobillərdən, dəbdəbəli villalardan da daha dəyərli şeylər var.

**Yaz vaxtı yenicə çalınmış otun qoxusunu içinə çəkmək, təbiətin ətrini, səsini duymaq, sakit bir gecədə aydın səmaya baxıb göydəki ulduzları saymaq, yağışın səsini, küləyin vıyıltısını hiss etmək, doğmalarla, qəlbə yaxın kəslərlə kasıbyana bir məclis qurub şirin söhbətin, olub-keçənlərin, xoş xatirələrin ümmanlarına dalmaq, həzin bir musiqi dinləmək, hansısa teatr tamaşasına baxıb oradan evinə, işinə köks dolusu təəssüratla qayıtmaq bunların mininə dəyər.**

**Dəyərdi...**

Getdikcə daha dəbdəbəli, məsrəfli hala gələn həyatda, var-dövlətdə, təmtəraqda, bərbəzəkdə tapa bilmədiyimiz xoşbəxtlik, əslində, bu qədər yaxınımızdadır...

Yaxınımızda idi...

Sadəcə olaraq, onu göz önünə qoymaq, duya bilmək, həyatın başqa azğın ehtiraslarından yüksəkdə tutmaq lazımdır.

Lazım idi...

**Epidemiyaların bəşəriyyətə anlatmaq istədiyi bir həqiqət də, bəlkə elə bu idi?!.**

**Əslində, bəlkəsiz də elə bu idi?!.**

❖❖❖

***Bu pandemiya konkret bir fərdə, xalqa, dövlətə qarşı yönəlməyib, bu bəla sərhəd tanımır...***

**Yoluxucu xəstəliklər kimi ali mənəvi dəyərləri də sərhədsiz etmək olar, insanları sülhə, sevgiyə, mərhəmətə, xeyirxahlığa da yaxşı mənada yoluxdurmaq mümkündür.**

**Mümkün idi...**

Pandemiyaya qarşı indi bütün dünya mübarizə aparır, hamı diqqətini bu məsələyə yönəldib. Fikir verirsinizmi, daha yaxın-uzaq ölkələrdə hərbi əməliyyatlar keçirilmir, müharibələr dayanıb, insanlar silahı yerə qoyub, bir-birini qırmır, bir-birini hədələmir, bir-birinə hücum etmir, bir-birinin komasını başına uçurmur, bütün bəşəriyyət bu bəlaya qarşı gücünü birləşdirib, bu sınaqdan elliklə çıxmağa çalışır.

Təbiət də bir qədər nəfəs almağa başlayıb sanki, elmi mərkəzlər son bir-iki ayda ətraf aləmdə nəzərəçarpacaq müsbət ekoloji dəyişikliklərin baş verdiyini bildirirlər, heç elmi mərkəzlərsiz də bunu adamın ciyərlərinə dolan saf havadan, aydın səmadan, ağacların təmiz yarpaqlarından, quşların şaqraq səsindən duymaq elə də çətin deyil.

**Deməli, dünyadakı bütün canlıların, ən çox da insanın özünü xoşbəxt sayacağı bir dünya yaratmaq öz əlimizdədir.**

**Yetər ki, bunu istəyək, can ataq, ali dəyərlər işığında gücümüzü birləşdirək!..**

❖❖❖

**"Biz birlikdə güclüyük!.."**

***Çox uğurlu ifadədir!..***

**Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin koronavirus pandemiyasına qarşı gərgin mübarizə dövründə irəli sürdüyü bu çağırış, əslində, pandemiyadan sonra bütün dünya üçün aktual olacaq.**

*Bu çağırış insanların sülh, xoşbəxtlik və hüzur içində yaşaya biləcəkləri daha gözəl bir dünyanın qurulmasını arzulayan hər bir insanın ali missiyasına çevriləcək, bəşəriyyəti mənəvi dəyərlər ətrafında bir araya gəlməyə səsləyəcək.*

Əslində, bu, Azərbaycanın belə bir məzmunda bütün dünyaya xitabən gündəmə gətirdiyi ilk çağırış deyil.

*Multikultural dəyərlərin, fərqli mədəniyyətlərə hörmət ruhunun, tolerantlığın Yer üzündə yayılmasına, hər kəs üçün ali həyat prinsipinə çevrilməsinə, insanların sülh, inkişaf naminə birləşməsinə yönələn qlobal təşəbbüsləri ilə, hər il ölkəmizdə keçirilən beynəlxalq humanitar forumlarla Azərbaycan illərdir ki, buna çalışır, planetimizdə eyni sağlam ideyaları paylaşan hər kəsi bu niyyət ətrafında bir araya gətirməyə can atır.*

**Həyat göstərdi ki, bəşəriyyətin sağlam bir gələcək naminə öz gücünü birləşdirməkdən başqa seçimi yoxdur.**

**Azərbaycan hər zaman olduğu kimi, bu məsələdə də nümunə yaratdı.**

**Dövlət rəhbərimizin QƏTİYYƏTİ, həyata keçirdiyi çevik və qabaqlayıcı tədbirlər, insanlara diqqət və qayğısı sayəsində ölkəmiz pandemiyada ən az itkilərlə üzləşən ölkələrdən oldu və arzu edək ki, bəlanın kökü tam kəsilənə qədər də belə olsun.**

***Cənab İlham Əliyev*** *təkcə vətəndaşlarımızın həyat və sağlamlığını qorumur, dövlətin dəstək tədbirləri ilə insanlarımızın iş-gücünü, güzəranını, ruzisini, təknəsinin çörəyini də qoruyur, belə məqamlarda güclü bir dövlətə sahibliyin nə qədər böyük lütf olduğunu, cəmiyyətdə əldə edilmiş milli vəhdətin, Azərbaycan xalqı olaraq, birlikdə gücümüzün nə qədər böyük nəticələr yaratdığını hər birimizə anladır.*

***Bu - vətəndaş tərbiyəsidir, sosial məsuliyyətdir...***

***Cəmiyyət olaraq, gəlib yetişdiyimiz inkişaf UCALIĞIDIR, intibah zirvəsidir...***

❖❖❖

*Karantin dövründə Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın xalqımıza bir neçə müraciəti oldu. Bunlar, əslində təkcə Azərbaycan xalqına deyil, ümumən bütün dünyaya xitabdır:*

**"Biz biri-birimizdən fərqliyik, amma evimiz birdir. Özgə dərd olmur. Ağrı və iztirablar sərhəd tanımır.**

**Virusa qarşı immunitet vaksin tapıldıqdan sonra yaranacaq. Biganəliyə qarşı immuniteti isə hər kəs özündə formalaşdırmalıdır..."**

*Bundan sonra dünyada biganəliyə, özgə dərdlərə yer yoxdur!..*

Yer üzünün indiki haləti papağımızı qarşımıza qoyub yaxşı-yaxşı düşünmək üçün bir fürsətdir bəlkə?..

Yenə bu bəlkələr...

Yenə bu suallar...

**Dünyanı bu hala biz gətirmişik, dünyanın yönünü, yörəsini də hamılıqla, birliyimizin gücü ilə dəyişməliyik!**

*Yolların, küçələrin infeksiyasını yumaqla iş bitməyəcək, içimizi, düşüncələrimizi, duyğularımızı da yuyub təmizləməliyik...*

*Özümüzü də, düşüncələrimizi də durulamağı bacarmalıyıq.*

*Ya bunu bacaracağıq, ya da dünyanın sonu ilə barışmalı olacağıq...*

*Yoxsa, bizi silib-süpürüb aparacaq bu qoca və qədim DÜNYA...*

**Bax onda... Onda həyatımızı yenidən yaşamalı olacağıq...**

***"Onda bir dan yeri üzü qibləyə sarı uzun-uzadı bir yağış başlayacaq...***
***Bu yerlərin loğmanı dünya boyu baxıb, sinə dolusu nəfəs alacaq...***
***Göy üzünün nur yağışı yağıb-yağıb dünyanı təzədən durulayacaq...***
***Təzədən yuyulmağına, yuyulub durulmağına ehtiyacı var dünyanın..."***

**30 il bundan öncə "Əzrayıl" povestimi yazanda, bax belə, belə düşünürdüm...**

**İndi necə, siz necə düşünürsünüz?**

**Dünyanın sonunu dünyanın yeni bir başlanğıcına çevirmək ZAMANI deyilmi?!.**

**Yenə "Qurani-Kərim"ə üz tuturam:** ***"Onlar ozlərində olanı dəyişməyincə, onlara yardım etmərəm!.."***

**Eheyyy!!!**

**Eşidirsinizmi?!.**

**Kim var, kim var orda?!.**

**İmamverdi İSMAYILOV,**
**Milli Məclisin deputatı, yazıçı-publisist**

# Heç bir maneə regionların inkişafını ləngidə bilməz

## Prezidentin Qarabağ bölgəsinə növbəti səfəri bu dəfə də yeni obyektlərin açılışı ilə yadda qaldı

*Əvvəli 1-ci səh.*



Bu sürətli inkişafı Tərtər rayonunun timsalında da görmək mümkündür. Rayonun bütün kəndlərinə qaz xətləri çəkilərək qazlaşdırmanın səviyyəsi 98 faizə çatmış, yolların 80 faizi əsaslı təmir olunmuşdur. Bunlardan əlavə, Tərtərdə digər infrastruktur layihələri də həyata keçirilmişdir. Belə ki, Tərtər şəhərinin su-kanalizasiya sistemi yenidən qurulmuş, mərkəzi rayon xəstəxanası əsaslı təmir olunaraq müasir avadanlıqlarla təchiz edilmişdir.

Tərtərin iqtisadiyyatının əsasını kənd təsərrüfatı təşkil edir. Bu sahənin inkişafı, xüsusən istehsalda yüksək məhsuldarlıq isə su təminatı ilə bağlıdır. Amma məlum olduğu kimi, rayonun əsas su mənbəyi olan Sərsəng Su Anbarı Ermənistan tərəfindən işğal edilmiş, Tərtərə suyun verilməsinin qarşısı kəsilmişdir. Tərtərdə bu problemi həll etmək məqsədilə bugünədək 72 subartezian quyusu qazılıb, əlavə 21 subartezian quyusunun qazılması da nəzərdə tutulub.

Prezident İlham Əliyev dövlətin bu istiqamətdə gördüyü işlər sayəsində rayon iqtisadiyyatında qazanılan uğurları qeyd edərək demişdir: "Taxılçılıq, pambıqçılıq Tərtər üçün ənənəvi kənd təsərrüfatı sahələridir. Pambıqçılığa gəldikdə, Tərtərdə məhsuldarlıq ölkə üzrə orta məhsuldarlıqdan üstündür. Hər hektardan 34 sentner pambıq götürülüb. Ölkə üzrə bu göstərici də yaxşı səviyyədədir, 29 sentnerdir. Amma Tərtər burada qabaqcıl yerdədir".

Bölgələrin inkişafı, əhalinin sayının çoxalması, eyni zamanda, elektrik enerjisinə olan tələbatı artırır. Bununla yanaşı, elektrik enerjisinin fasiləsiz və dayanıqlı olması həm iqtisadi, həm də sosial baxımdan mühüm əhəmiyyət kəsb edir. Xəbər verildiyi kimi, dövlət başçısının iştirakı ilə iyunun 3-də 110/35/6 kilovoltluq "Tərtər" elektrik yarımstansiyasının yenidən qurulmadan sonra açılışı olmuşdur. Stansiyanın istifadəyə verilməsi ilə 17 min 103-ü əhali, 1296-sı qeyri-əhali olmaqla, ümumilikdə 18 min 393 abonentin elektrik enerjisinin təminatı daha da yaxşılaşacaq. Beynəlxalq standartlara cavab verən "Tərtər" yarımstansiyası 110 kilovoltluq Naftalan və 110 kilovoltluq Bərdə hava xətləri vasitəsilə əlaqələndirilməklə "Azərbaycan" İstilik Elektrik Stansiyası və 330 voltluq "Gəncə" yarımstansiyası arasında dairəvi elektrik təchizatı sisteminə qoşulub. Bunun sayəsində yarımstansiya Tərtər, Bərdə rayonlarında, habelə Naftalan şəhərində enerji ilə təminatın etibarlığını və təhlükəsizliyini təmin edəcək.

Sözügedən səfər çərçivəsində mühüm tədbirlərdən biri də əhalinin, xüsusən qadınların iş yerləri ilə təmin olunmasına xidmət edən xalça sexinin açılmasıdır. Dövlət başçısının müvafiq sərəncamları ilə ölkə üzrə 31 xalça müəssisəsinin yaradılması nəzərdə tutulur ki, onlardan da 13-ü artıq istifadəyə verilib, 8-i isə istifadəyə hazır vəziyyətinə gətirilib. Bununla yanaşı, yunəyirici-boyaq fabrikinin, hazır xalçaların emalı mərkəzinin, yun və boyaq tədarükü məntəqələrinin yaradılması istiqamətində də müəyyən işlər görülür.

"Azərxalça" Açıq Səhmdar Cəmiyyətinin Tərtər filialının açılışında iştirak edən Prezidentə məlumat verildi ki, filialda 43 dəzgah quraşdırılıb. Müəssisənin konfrans zalı, tibb otağı, anbar, yeməkxana, xalça və xalça məmulatlarının sərgilənməsi, həmçinin satış üçün xalça-satış salonu var. Filialda 150 toxucunun və 14 inzibati-təsərrüfat işçisinin çalışması nəzərdə tutulur. Hazırda burada 71-i toxucu, 14-ü inzibati-təsərrüfat işçisi olmaqla, 85 nəfər işləyir.

Dövlət başçısının bölgələrə növbəti səfəri bir daha göstərdi ki, regionların sosial-iqtisadi inkişafı ilə bağlı həyata keçirilən tədbirlər dördüncü regional inkişaf proqramı çərçivəsində indiki pandemiya dövründə də davam edir. Bu proqramın icra müddəti isə sona çatmayıb. Odur ki, proqram başa çatanadək bölgələrdə, o cümlədən də Tərtərdə hələ yeni sosial-iqtisadi obyektlərin tikilib istifadəyə verilməsinin çox şahidi olacağıq.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

# İlham Əliyevin mütərəqqi islahatlarına növbəti yüksək qiymət

## Azərbaycan korrupsiyaya qarşı mübarizədə Avropa Şurasına üzv 50 ölkə arasında 7-ci, MDB ölkələri arasında liderdir

*Əvvəli 1-ci səh.*

### Korrupsiya ilə mübarizəyə verilən beynəlxalq qiymət

Ölkəmizdə dövlət idarəçiliyində şəffaflığın artırılması və korrupsiyaya qarşı mübarizə sahəsində həyata keçirilən islahatlar və əldə edilən nailiyyətlər bu sahədə ixtisaslaşmış aparıcı beynəlxalq təşkilatlar - BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsi (UNODC), İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD), Avropa Şurasının antikorrupsiya monitorinq orqanı - Korrupsiyaya qarşı Dövlətlər Qrupu (GRECO), MONEYVAL Komitəsi və digər ixtisaslaşmış nüfuzlu qurumlar tərəfindən də yüksək qiymətləndirilir.

İyunun 3-də Strasburqda Avropa Şurasının antikorrupsiya monitorinq orqanı - Korrupsiyaya qarşı Dövlətlər Qrupunun (GRECO) 2019-cu ildə fəaliyyətini əks etdirən hesabatında Azərbaycana verilən yüksək qiymət bunu bir daha təsdiqlədi.

Hesabat parlament üzvləri, hakimlər və prokurorların fəaliyyətində korrupsiyanın qarşısının alınması məsələlərini əhatə edir. Sənədə əsasən Azərbaycan tövsiyələri 61,9 faiz icra edib. Ölkəmiz bu göstərici üzrə Avropa Şurasına üzv 50 ölkə arasında 7-ci, MDB ölkələri arasında isə 1-ci yerdədir.

Bu yüksək nəticə ölkəmizdə korrupsiyaya qarşı mübarizə sahəsində mövcud olan güclü siyasi iradə ilə bağlıdır. Dövlət idarəçiliyində şəffaflığın gücləndirilməsi, elektron xidmətlərin inkişafı və korrupsiyaya qarşı mübarizə dövlət siyasətinin prioritet istiqamətlərindəndir. Korrupsiyaya qarşı mübarizə sahəsində ixtisaslaşmış orqanlar bu sahədə dövlət siyasətinin formalaşması, cinayət təqibinin həyata keçirilməsi və dövlət qurumları tərəfindən preventiv tədbirlərin icrası istiqamətlərində sistemli fəaliyyət həyata keçirirlər.

Göründüyü kimi, Azərbaycanda korrupsiyaya qarşı mübarizə sahəsində əldə edilən müsbət dinamika beynəlxalq antikorrupsiya reytinqlərində də öz əksini tapıb. Ölkəmiz Avropa Şurasının Korrupsiyaya qarşı Dövlətlər Qrupunun (GRECO) və OECD-nin Antikorrupsiya Şəbəkəsinin 3 qiymətləndirmə raundunu uğurla keçib. Bu isə Azərbaycanda həyata keçirilən tədbirlərin Avropa standartlarına uyğunluğunun indikatorudur.

### Rüşvətxorluğa qarşı amansız mübarizə davam edəcək

Hazırda korrupsiyaya qarşı mübarizə və açıq hökumətin təşviqi üzrə Milli Fəaliyyət planları dövlət orqanları tərəfindən yüksək səviyyədə icra olunur. Vətəndaş cəmiyyəti institutlarının apardıqları müstəqil monitorinqlərin nəticələri Milli Fəaliyyət planlarının uğurlu icrasını bir daha təsdiq edib.

Korrupsiyaya qarşı mübarizəyə dair milli strategiya və fəaliyyət planlarına əsasən bu sahədə yeni strateji baxışlar və hədəflər müəyyən edilib. Bu strategiyanın icrasına uyğun olaraq həyata keçirilən institusional və qanunvericilik islahatları, yaradılan elektron hökumət infrastrukturu, vətəndaş cəmiyyəti ilə qurulan sıx əməkdaşlıq və geniş maarifləndirmə tədbirləri antikorrupsiya siyasətinin təzahürləridir.

Cənab İlham Əliyev son çıxışlarında, vəzifəyə yeni təyin etdiyi icra məmurları ilə görüşlərində korrupsiyaya qarşı mübarizədə çox ciddi tədbirlərin görüləcəyini və bu prosesin daha amansız şəkildə həyata keçiriləcəyini bəyan edir.

Mayın 21-də Ağstafa və İmişli rayonlarına təyin etdiyi yeni icra hakimiyyəti başçılarının qəbulu zamanı Prezident bir daha məmurlara xəbərdarlıq edərək bəyan etdi ki, Azərbaycanda korrupsiyaya, rüşvətxorluğa, talançılığa qarşı mübarizə sözdə yox, əməldə aparılır və bu mübarizə bundan sonra da aparılacaq: "Korrupsiyaya, rüşvətxorluğa qarşı amansız mübarizə aparılmalı və bunun kökü kəsilməlidir. Bir daha demək istəyirəm ki, Azərbaycanın uğurlu inkişafı, ölkəmizin dayanıqlı inkişafı üçün xoşagəlməz hallara son qoyulmalıdır".

Göründüyü kimi, cənab İlham Əliyev qlobal pandemiya ilə mübarizə dövründə də korrupsiya və rüşvətxorluğa qarşı mübarizənin gücləndirilməsini xüsusi diqqətdə saxlayır. Dövlət başçısı ölkəmizdə həyata keçirilən quruculuq işlərinə, iqtisadi, sosial və siyasi sahədə aparılan islahatlara kölgə salan, habelə əhalinin haqlı narazılığına səbəb olan rüşvətxorluq və korrupsiya kimi neqativ təzahürlərə qarşı daha ciddi mübarizənin aparılacağını bəyan edib.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Milli Məclisin Regional məsələlər komitəsinin iclası keçirilib

İyunun 8-də Milli Məclisin Regional məsələlər komitəsinin növbəti iclası keçirilib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, iclası açan komitə sədri Siyavuş Novruzov gündəlik haqqında məlumat verib.

Bildirilib ki, Prezident İlham Əliyev tərəfindən qanunvericilik təşəbbüsü qaydasında təqdim olunan Naxçıvan Muxtar Respublikasının Babək rayonunun inzibati ərazi bölgüsündə qismən dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi baxılmaq üçün müzakirəyə çıxarılır. Layihəyə əsasən Naxçıvan Muxtar Respublikasının Babək qəsəbəsinə şəhər statusunun verilməsi, Cəhri və Nehrəm kəndlərinə qəsəbə statusu verilməsi nəzərdə tutulub.

Komitə sədri deyib ki, Ümummilli Lider Heydər Əliyevin qurduğu müstəqil Azərbaycan Respublikası Prezident İlham Əliyevin rəhbərliyi altında günbəgün inkişaf edir. Həm iqtisadi islahatlar, həm sosial problemlərin həll olunması regionların da inkişafında özünü büruzə verir. Son illər Babək rayonunda geniş abadlıq, quruculuq tədbirləri həyata keçirilib, onlarca inzibati bina, məktəb və xəstəxanalar, sənaye müəssisələri, park və xiyabanlar salınıb.

Sonra komitə sədri Babək qəsəbəsi, rayonun Cəhri və Nehrəm kəndləri haqqında iclas iştirakçılarına ətraflı məlumat verib, bu yaşayış yerlərinin tarixindən danışdı, Muxtar Respublikanın bu bölgəsindəki sosial-iqtisadi inkişafdan bəhs edib. Babək qəsəbəsinə şəhər statusunun, adı çəkilən kəndlərə isə qəsəbə statusunun verilməsinin əhəmiyyətini vurğulayıb.

Qeyd olunub ki, Babək qəsəbəsi Ümummilli Lider tərəfindən 1978-ci ildə yaradılıb. Babək qəsəbəsi rayonun inzibati mərkəzi olmaqla yanaşı, həmçinin iqtisadi və mədəni mərkəzdir.

Bildirilib ki, Babək rayonunun Cəhri və Nehrəm kəndlərinə göstərilən dövlət qayğısı nəticəsində əhalinin sayı artmaqla bərabər, sosial-iqtisadi inkişaf və məşğulluq səviyyəsi də yaxşılaşıb, yeni istehsal və sosial-mədəni obyektlər qurulmaqla hər iki kənd müasir tipli qəsəbəyə çevrilib.

Komitə üzvləri Səttar Möhbalıyev, Nizami Cəfərov, Cavid Osmanov, Tahir Rzayev, Kamran Bayramov, Məzahir Əfəndiyev, Emin Hacıyev, Malik Həsənov məsələ ilə bağlı öz fikirlərini açıqlayıblar.

Müzakirələrin sonunda sənəd Milli Məclisin plenar iclasına tövsiyə edilib.

# Prokurorluq 2 milyon manatlıq korrupsiya cinayətini ifşa edib

Ağdaş rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzinin (ƏSMM) vəzifəli şəxslərinin bir qrupunun cinayət əməllərinə görə 2013-cü il mayın 6-da Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsində başlanmış cinayət işinin istintaqı davam etdirilir.

Baş Prokurorluğun mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, aparılmış istintaqla Ağdaş rayon ƏSMM-nin sabiq direktoru Vahid Seyfəlovun, mühasibat uçotu sektorunun sabiq müdiri Müşfiq Baxışov, "Azərpoçt" Məhdud Məsuliyyətli Cəmiyyətinin Ağdaş rayon poçt filialının sabiq şöbə rəisləri Adil Həsənov və Əslan Lətifov ilə qabaqcadan əlbir olaraq, Ağdaş Rayon İcra Hakimiyyəti başçısının Ağdaş şəhər inzibati ərazi dairəsi üzrə sabiq nümayəndəsi Müstəqim Məmmədov və rayon peşə məktəbinin sabiq baş mühasibi Yaşar Həsənov tərəfindən hazırlanmış yaşayış yeri və təhsil haqqında saxta arayışlar əsasında 2006-cı il yanvarın 1-dən 2007-ci il iyunun 10-dək olan müddətdə sosial müdafiə mərkəzinin səlahiyyət dairəsində yaşamayan, uydurulmuş, eləcə də yaşayan şəxslərin adından özlərinin məlumatı olmadan sosial müavinətin təyin edilməsi haqqında saxta müraciət ərizələri və qərarlar, ödəniş tapşırıqları və şəxsi hesab kartları hazırlamaqla müxtəlif növlərdə saxta sosial müavinət işləri açaraq həmin müavinət işləri üzrə pul vəsaitlərini mənimsəmələri faktları müəyyənləşdirilib.

Həmin vəzifəli şəxslərin Cinayət Məcəlləsinin müvafiq maddələri ilə təqsirləndirilmələrinə dair cinayət işi üzrə istintaq tamamlanaraq baxılması üçün Şəki Ağır Cinayətlər Məhkəməsinə göndərilib və məhkəmə tərəfindən təqsirləndirilən şəxslərin barəsində müvafiq ittiham hökmləri çıxarılıb.

Həmin cinayətlərin törədilməsi zamanı həmin vəzifəli şəxslərlə qabaqcadan əlbir olaraq birgə icraçı kimi çıxış etmiş digər vəzifəli şəxsin istintaq zamanı müəyyən edilməməsi səbəbindən həmin cinayət işinin materiallarından 2017-ci il mayın 23-də yeni cinayət işi ayrıca icraata ayrılıb və iş üzrə icraat cari il mayın 20-də təzələnib.

İstintaqla həmin mərkəzdə ünvanlı sosial yardım və sosial müavinətlər sektorunda məsləhətçi işləmiş Mahuzər Musayevanın yuxarıda adları qeyd edilən şəxslərlə birgə, eyni cinayət əməllərini törətməsi nəticəsində 2006-cı il yanvarın 1-dən 2007-ci il iyunun 10-dək olan müddətdə vəzifə səlahiyyətlərindən sui-istifadə etməklə saxtakarlığa yol verib cinayət yolu ilə əldə etdikləri 1 milyon 930 min manat məbləğində pul vəsaitini cinayətkar qrupun üzvləri arasında bölməklə mənimsəmələrinə əsaslı şübhələr müəyyən edilib.

Həmin əməllərə görə Mahuzər Musayeva Cinayət Məcəlləsinin 179.3.2-ci (mənimsəmə və ya israf etmə), 308.2-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə) və 313-cü (vəzifə saxtakarlığı) maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb edilməklə ona həmin maddələrdə nəzərdə tutulan ittiham elan olunub.

Hazırda iş üzrə istintaq-əməliyyat tədbirləri davam etdirilir.

# CQBK ilə Azərbaycan qazının ixracı təhlükəsiz və səmərəli şəkildə davam edir

## Hazırda kəmərin gündəlik orta ötürücülük gücü 33,6 milyon kubmetrdir

Bu ilin birinci rübündə Cənubi Qafqaz Boru Kəmərinin (CQBK) gündəlik orta ötürücülük gücü 33,6 milyon kubmetr qaz təşkil edib. Keçən il isə bu rəqəm 29 milyon kubmetr olub. Bu barədə BP Azərbaycan şirkəti məlumat verib.



CQBK dünya səviyyəli boru kəməri sistemidir. O, Azərbaycanda 443 və Gürcüstanda 248 kilometr məsafə boyu uzanır. Sistemin hər iki ölkədə, eləcə də yerüstü obyektləri - kompressor stansiyaları və nəzarət-ölçü qovşaqları var.

CQBK 2006-cı ildən səmərəli şəkildə fəaliyyət göstərərək Azərbaycan, Gürcüstan və Türkiyə regional bazarlarına qaz nəql edir. "Şahdəniz" yatağının işlənməsinin ikinci mərhələsi çərçivəsində əlavə hasilat həcmlərini qəbul etmək, ildə Türkiyəyə 6 milyard və Avropaya 10 milyard kubmetr mavi yanacaq ötürmək məqsədilə sistemin genişləndirilməsi həyata keçirilib. Boru kəmərinin genişləndirilmiş hissəsi 2018-ci ilin iyun ayından Türkiyəyə kommersiya qaz həcmlərinin nəqlinə başlayıb.

Bu günlər kəmərin uğurlar salnaməsi daha bir mühüm hadisə ilə zənginləşib. CQBK şirkəti kəmərin texniki operatorluğunun BP Eksploreyşn ("Şahdəniz") Limited şirkətindən SOCAR-ın törəmə müəssisəsi olan SOCAR Midstream Operations MMC-yə keçdiyini elan edib.

CQBK "Cənub qaz dəhlizi"ni təşkil edən üç kəmərin birincisidir. Onun texniki operatorluğunun SOCAR-a keçməsi "Şahdəniz-2" və CQBK-nın genişləndirilməsi layihələrinə dair yekun investisiya qərarı çərçivəsində 2013-cü ilin dekabrında imzalanmış "Düzəliş Edilmiş və Yenilənmiş Boru Xətti Sahiblərinin Müqaviləsi"nə uyğun olaraq həyata keçirilib. Həmin müqavilədə CQBK-nın yeni hissəsinin tikintisinin başa çatmasının birinci ildönümündə kəmərin texniki operatorluğunun SOCAR-a keçməsi nəzərdə tutulmuşdu.

Texniki operatorluğun ötürülməsi Azərbaycanda və Gürcüstanda CQBK-ya aid bütün obyektlərin əməliyyatlarını əhatə edir. Həm Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan (BTC) boru kəmərinin, həm də CQBK-nın obyektlərinin əməliyyatçılığını isə BP şirkəti ümumi operator qismində davam etdirəcək. Səngəçal terminalının, BTC-nin və Qərb İxrac Boru Kəmərinin (QİBK) operatorluğunda heç bir dəyişiklik olmayacaq, yəni onlara operatorluğu BP icra edəcək. CQBK-nın texniki operatorluğunun keçidi prosesinin bütün aspektlərinin səmərəli şəkildə yerinə yetirilməsi üçün SOCAR və BP 2020-ci il ərzində birgə işləyəcəklər.

Xatırladaq ki, Cənubi Qafqaz Boru Kəmərinin səhmdarları BP (28,8 faiz), TPAO (19 faiz), SOCAR (10 faiz), "Cənub qaz dəhlizi" (6,7 faiz), PETRONAS (15,5 faiz), LUKOYL (10 faiz), NİKO (10 faiz) şirkətləridir.

BP şirkəti SOCAR-ın Cənubi Qafqaz Boru Kəmərinin yeni texniki operatoru olmasını məmnuniyyət hissi ilə qarşıladığını bəyan edib. Bildirilib ki, "Şahdəniz"in və CQBK-nın ən iri payçısı kimi bu şirkət boru kəmərinin təhlükəsiz və etibarlı istismarının davamlı olması üçün SOCAR-la birgə işləməkdə davam edəcək: "Layihələrin təhlükəsiz və səmərəli şəkildə həyata keçirilməsində SOCAR-ın böyük təcrübəsi var. SOCAR bunu TANAP-ın (Trans-Anadolu Qaz Boru Kəməri) dörd illik uğurlu tikintisi və onun ardınca təhlükəsiz istismarı zamanı nümayiş etdirib. Bundan əlavə, SOCAR artıq beş ildir ki, çox səmərəli şəkildə CQBK-nin kommersiya operatoru qismində çıxış edir. Biz keçid mərhələsinin təhlükəsiz qaydada, ümumilikdə qazın nəqli əməliyyatlarına heç bir təsir yaratmadan tamamlanmasını təmin etmək üçün planlaşdırılmış dəyişikliklərin idarə olunması prosesində SOCAR-a dəstək olacağıq".

Azərbaycan qazını Səngəçal terminalından Gürcüstan-Türkiyə sərhədinədək daşıyan CQBK mavi yanacağın Avropaya ixrac edilməsinə də imkan yaradacaq. Belə ki, bu ilin sonunadək istifadəyə verilməsi nəzərdə tutulan TAP (Trans-Adriatik Qaz Boru Kəməri) CQBK və TANAP-la nəql olunan qazı qəbul edərək Albaniya və Yunanıstanın ərazisindən keçib İtaliyaya çatdıracaq.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# "Azərişıq" ASC Şamaxı rayonunun Çuxuryurd kəndində yenidənqurma işləri aparır

"Azərişıq" ASC-nin paylayıcı elektrik şəbəkələrinin yenidənqurulması proqramına əsasən Şamaxı rayonunun Çuxuryurd kəndində yenidənqurma işlərinə başlanılıb. 5 minədək sakini olan Çuxuryurd kəndində ilk dəfə 1966-cı ildə elektrik şəbəkəsi qurulub.

Köhnə transformator məntəqələri, yararsız kabellər, çürümüş ağac dayaqlar, hətta sayğaclar belə yeniləri ilə əvəz olunur. Bir sözlə, yaşayış məntəqəsinin elektrik təsərrüfatı tamamilə yenilənir. Paylayıcı elektrik şəbəkənin yenidən qurulmasında əsas məqsəd istehlakçıları dayanıqlı və keyfiyyətli elektrik enerjisi ilə təmin etməkdir. Azərbaycan Respublikasının Prezident cənab İlham Əliyevin ölkədə həyata keçirdiyi sosial siyasətin tərkib hissəsi olaraq əhalinin elektrik enerjisi ilə təchizatının yaxşılaşdırılması istiqamətində qarşıya qoyulan tədbirlər proqramının icrası uğurla davam edir. Xatırladaq ki, "Yeni kəndlər" layihəsi çərçivəsində "Azərişıq" ASC indiyədək ölkə üzrə 500-dən çox kənddə elektrik enerjisi sistemini tamamilə yenidən qurub.





◆ Zəlzələ bölgəsindən reportaj

*Əvvəli 1-ci səh.*

# Prezident hədiyyəsi

## Şamaxıda 43 yeni mənzil tezliklə sakinlərə təhvil veriləcək

### "Tanrı İlham Əliyevi, Mehriban xanımı qorusun"

Hazırda Şamaxıda M.Füzuli, Gənclər, Teymur Zahidov, N.Rəfibəyli küçələrində zəlzələdən qəzalı duruma düşmüş evlərin yerində yeni fərdi mənzillərin tikintisi davam etdirilir, bəzi evlərdə isə bərpa işləri aparılır.

M.Füzuli küçəsində yaşayan Muradovlar ailəsinə məxsus 3 otaqlı ev də zəlzələ nəticəsində yararsız hala düşüb. Aparılan yoxlamalardan sonra mənzilin tam sökülərək yerində yeni evin tikilməsi barədə qərar verilib. Hazırda mənzildə son tamamlanma





işləri görülür. Bir neçə gündən sonra Muradovlar ailəsi yeni mənzil sevincini yaşayacaqlar. Elə 10 yaşlı Muradla, 9 yaşlı Elşən də təzə evlərinə köçəcəkləri üçün çox səbirsizlənirlər.

Ailə üzvləri ilə söhbət zamanı bəlli oldu ki, köhnə 3 otaqlı mənzilin yerində onlara 4 otaqlı daha geniş ev tikilir. Buna görə Muradovlar ailəsi Prezident İlham Əliyevə, Birinci vitse-prezident Mehriban xanım Əliyevaya çox minnətdardırlar. Elçin Muradov yaşayacağı yeni mənzili əli ilə işarə edərək deyir: "Bu, əsl dövlət qayğısı, Prezident himayəsidir. Biz şahidik ki, Azərbaycan Prezidenti hər bir vətəndaşın probleminə necə yanaşır, onun qayğısına necə qalır. Var olsun İlham Əliyev!

Bu gün mənim övladlarımın üzü gülür, çox xoşbəxtdirlər. Allah bu yaxşılığı Prezidentimizin övladlarının, nəvələrinin qarşısına çıxarsın. Tanrı İlham Əliyevi, Mehriban xanımı qorusun".

Bir neçə gündən sonra Muradovlar ailəsinin köçəcəyi yeni mənzillər

*(Əvvəli qəzetin 4 iyun tarixli nömrəsində)*



tam təmirlidir və istilik sistemi, mətbəxt mebeli, həmçinin digər avadanlıqlarla təchiz edilib.

### Hər namazıma İlham Əliyevin adı ilə başlayıram

Şəhərin Teymur Zahidov küçəsində Azər Nəcəfova məxsus 3 otaqlı, Nigar Rəfibəyli küçəsində Məleykə İsgəndərovaya məxsus 3 otaqlı mənzildə aparılan tikinti işləri ilə də tanış olduq. Evlərin dam örtüyü vurulub, bütün otaqların suvaq işləri bitib. Tezliklə mənzillər sahiblərinə təhvil veriləcək.

Zəlzələ nəticəsində tam yararsız hala düşmüş Gənclər küçəsində Sadiqə Məmmədovaya məxsus mənzilin yerində isə indi daha möhtəşım ev tikilir. Tikinti işləri ilə tanış olarkən ev sahibəsinin də ustalara yardım etdiyinin şahidi olduq. Üzündəki sevinc hissindən bəlli olur ki, yeni tikili Sadiqə xanımın ürəyincədir:

"Çox sevincliyəm. Ürəyim xoş sözlərlə doludur. Allah Prezidentimizə ömür versin. Zəlzələ bizi çox qorxutdu, evimizi yararsız hala saldı. Amma hər bir vətəndaşın qayğısına qalan dövlət başçımız Şamaxıya səfər edərək bizə böyük təsəlli oldu. Dağılan evlərin yerində yeni mənzillərin tikiləcəyini söylədi və verdiyi vədinə həmişəki kimi sadiq qaldı. Dünyada elə bir dövlət başçısı yoxdur ki, insanlarla bu qədər yaxın təmasda, görüşlərdə olsun, qocalara, uşaqlara, kimsəsizlərə yardım etsin. Saysız-hesabsız görüşləri, insanları səbirlə dinləməsi, onların hər bir məsləhətlərini, arzu və təkliflərini nəzərə alması İlham Əliyevin həqiqətən hər bir azərbaycanlının sevimli prezidenti olmasından xəbər verir".

3 övlad böyüdən Sadiqə xanım hazırda 2 qızı və nəvələri ilə birgə yaşayır. Deyir ki, zəlzələdən sonra rayon icra hakimiyyətinin başçısı, Heydər Əliyev Fondunun "Regional İnkişaf" İctimai Birliyinin və Fövqaladə Hallar Nazirliyinin Komissiyasının rəhbərliyi evlərinə baş çəkərək onlara böyük dəstək olublar. Tam yararsız hala düşdüyü üçün yeni mənzilin tikilməsi barədə qərar verilib:

"Baxın, cənab Prezident bizə necə möhtəşəm ev tikdirir. Əvvəkli evimiz 3 otaqlı idi. Dövlət başçısı bizə 2 mərtəbəli, 5 otaqlı, tam təmirli yeni mənzil hədiyyə edəcək. Belə Prezidentdən kim narazı qala bilər?!

Hər bir vətəndaşın qayğısına qalır, darda olana kömək edir, çətin dövrlərdə insanların yaxşı yaşaması üçün əlindən gələni edir. Koronavirus pandemiyası dövründə aztəminatlı ailələrə yardımların verilməsi, işləməyən insanlara maaşlarının ödənilməsi də Prezidentin insanseverliyinin göstəricisi, dövlət başçısı kimi vətəndaşa qayğısıdır. Belə qayğı heç bir ölkədə yoxdur.

Hər gün Allaha dua edən insanam. Hər namazıma İlham Əliyevin adı ilə başlayıram. Bizim arzularımız gerçəkləşir, Tanrı Prezidentimizi, Mehriban xanımı arzularına çatdırsın. Amin!"

Sadiqə xanımın ürəyinə damıb ki, yeni mənzillərinə köçərkən cənab İlham Əliyev Şamaxıya səfər edib onlara bir daha xeyir-dua verəcək. Həmin zaman Sadiqə xanım ürəyindəki xoş sözlərin hamısını dövlət başçısına söyləyəcək.

### Yeni mənzil sevinci

Yeni mənzillərə köçən sakinlərin sevinci, tikinti-quruculuq işlərinin davam etməsi insanda xoş təəssürat yaradır. Şamaxıda apardığımız müşahidələrə əsasən deyə bilərik ki, tezliklə daha 43 ailə yeni mənzil sevincini yaşayacaq.

Göründüyü kimi, bu gün Şamaxıda zəlzələdən ziyan çəkən sakinlər üçün həm fərdi, həm də çoxmərtəbəli yaşayış binalarının tikintisi davam etdirlir. Bütün bunlar Prezident qayğısının əyani təzahürüdür. Kimliyindən, tutduğu mövqedən asılı olmayaraq, hər bir vətəndaşın dərd-səri, qayğıları, problemləri cənab İlham Əliyevin diqqətində və nəzarətindədir. Görülən bütün işlər vətəndaşın Prezidentə olan inamını, etimadını daha da artırır.

Yəqin ki, biz də növbəti dəfə Şamaxıya səfərimizdə Həsənovlar, Məmmədovlar, İsgəndərovlar ailəsinin yeni mənzillərində yaşadıqları xoş təəssüratlara, keçirdikləri sevinc hisslərinə şahidlik etmiş olacağıq. Elə bu xoş diləklə də müşahidələrimizi bitirib geri dönürük.

***Rəşad BAXŞƏLİYEV,***
***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# Fədakar qanun keşikçiləri

## Azərbaycan polisi layiqli işi ilə koronavirusla mübarizədə də ön sıradadır

*Əvvəli 1-ci səh.*







Bu hadisələri əks etdirən görüntülərin çoxu sosial şəbəkələrdə yayıldı. Kimlərsə videolara baxıb güldü, kimlərsə polisi təhqir etdi. Çoxluq isə polisdən qaçıb gizlənməyə çalışanları tənbeh etdi ki, niyə evdə qalmırsınız? Hər yer bağlı olduğu halda hara gedirsiniz? Məgər iki gün evdə oturub ailənizlə, övladlarınızla birgə vaxt keçirmək bu qədərmi çətindir? Axı evdə qalmağınız məhz sizin, ailənizin, övladlarınızın sağlamlığı, koronavirusa yoluxmaması üçündür. Polis də Nazirlər Kabineti yanında Operativ Qərargahın qəbul etdiyi qərara uyğun olaraq nəzarəti həyata keçirir. Yəni sizi, bizi bu dəhşətli virusa yoluxmaqdan qoruyur.

İkigünlük küçəyə çıxma qadağası yalnız Azərbaycanda tətbiq olunmur. Bu cür karantin rejimi qardaş Türkiyə daxil olmaqla dünyanın bir çox ölkələrində tətbiq edilib və edilməkdədir. Belə zamanlarda xalqın əziyyətini məhz polis çəkir. Bəs bu iki gündə Azərbaycan polisi nə etdi?

Bayılda su kəsildi, polis su maşını gətirib əhalini su ilə təmin etdi.

Yeni Yasamalda polis hamilə qadını xəstəxanaya çatdırdı. Uşaq elə maşında dünyaya gəldi.

Binədə əlini şüşə kəsən qadın qanaxmadan ölə bilərdi, polis onu vaxtında xəstəxanaya çatdırıb həyatını xilas etdi.

Dializ xəstəsinin köməyinə son anda polislər çatdı.

Bacısını itirən yaşlı qadını polis öz maşını ilə yas yerinə apardı.

Küçədə sahibsiz heyvanları yemləyən polislər oldu.

Ahıl qadın küçəyə çıxaraq marketə gedir, görünür, sərt karantin rejimindən xəbəri yoxdur. Polislər ona yaxınlaşıb vəziyyəti öyrənəndən sonra öz yemək paylarını ona verib yola salırlar.

Daxili İşlər Nazirliyinin 102 xidmətinə zəng edən bir ailə çörək istəyir. Dərhal polislər həmin ailəyə çörək çatdırırlar.

Bir ailə də polisə zəng edərək xəstə övladının yeməyinin bitdiyini deyir. Nərimanov Rayon Polis İdarəsinin əməkdaşlarından biri aptek və marketlər bağlı olduğu üçün evinə gedərək öz uşağının yeməyini gətirib həmin ailəyə verərək daha bir insanlıq nümunəsi göstərir.

Himnimiz səslənən zaman xidməti maşından düşərək farağat duran polislərimizi də görüb fəxr etdik.

Belə faktlar onlarladır və əksəriyyəti də vətəndaşlar tərəfindən çəkilərək yayılıb. Ona görə də polisi hədəfə alanda şəhid, qazi polisləri, ekstremal vəziyyətlərdə vətəndaşa yardım edənləri, milli-mənəvi dəyərlərimizi, dövlət atributlarımızı uca tutan polisləri unutmamalıyıq.

Amma əfsuslar olsun ki, bu günlərdə icazəsiz küçəyə çıxıb qanunu pozduğu bəs deyilmiş kimi, polisə tabe olmayaraq qaçmağa cəhd edənlər də oldu. Polisə müqavimət göstərən şəxsin saxlanılması zamanı həmin binada yaşayan bəzi sakinlərin eyvan və pəncərələrdən zibil atması, polisləri fitə basması isə yanlış və yolverilməz hərəkət idi. Videonun əvvəlində aydın şəkildə görünür ki, polislər vətəndaşla söhbət aparırlar. Lakin vətəndaş qəfildən qaçıb polisə müqavimət göstərir. Polisin birini itələyib yerə yıxır. Ayağını dirəyərək polis maşınına oturmaq istəmir. Binanın bəzi sakinləri isə qanunu pozan, məsuliyyətsizik edən vətəndaşı qınamaq əvəzinə üzərində dövlət atributlarını gəzdirən, vətəni qorumaq üçün şərəfinə and içən, vəzifə başında olan polisin başına zibil tökür. Bu hərəkət, sadəcə, ayıb və tərbiyəsizlik idi. Lakin polis əməkdaşları buna təmkin nümayiş etdirir və karantin rejimini pozan həmin şəxs barəsində inzibati tədbir görür.

Məgər bunu anlamaq çətindir ki, polisin "evdə otur" tələbi bizim sağlamlığımız üçündür?! Küçəyə çıxıb virusa yoluxmamağımız üçündür... Bir müddət sonra sağlam şəkildə küçədə, parkda rahat gəzə bilməyimiz üçündür...

Sərt karantin günlərində koronavirusa yoluxma təhlükəsi olan sağlam vətəndaşlarımızın keşiyində məhz Azərbaycan polisi dayandı. Biz sağlam olaq, koronavirusa yoluxmamaq üçün evdə qalaq deyə, onlar öz canlarını təhlükəyə ataraq küçələrə çıxdılar. Fədakarlıq nümayiş etdirdilər, gecə-gündüz yollarda, postlarda, parklarda qoruyucumuza çevrildilər. Yaşlı, tənha, kimsəsiz insanların köməyinə tələsdilər, sovqat apardılar. Sosial məsafə saxlamağımızı, maska taxmağımızı, karantin qaydalarına əməl etməyimizi, yəni özümüzü qorumağımızı tələb və təmin etdilər. Məhz polislərimiz fədakarlığı, layiqli işi ilə koronavirusla mübarizədə ön sıralarda ayıq, sayıq şəkildə durdular.

Polisin karantin dövründə xidmətləri danılmazdır, bunu görməmək mümkün deyil. Prezident İlham Əliyev də onların xidmətinə yüksək qiymət verib. Dövlət başçısı bildirib ki, polislər, Daxili Qoşunların əməkdaşları gecə-gündüz küçələrdədir, həyatlarını risk altına atırlar, insanları başa salmağa çalışırlar. Onların əməyini yerə vurmamalıyıq.

"Hesab edirəm ki, bizim hələlik tam razı ola bilmədiyimiz yeganə məsələ məsuliyyətdir. Çünki bəzi insanlar özlərini məsuliyyətsiz aparırlar. Bəzi insanlar qəbul edilmiş qaydaları pozmağa çalışırlar. Beləliklə, həm özlərini, həm yaxınlarını, həm də ki, tanımadığı insanları risk altına qoyurlar. Bunu etmək olmaz. Bu qadağalar ona görə qəbul edilib ki, yoluxma halları məhdudlaşdırılsın. Yaşı 65-dən yuxarı olan insanlar küçəyə çıxa bilməzlər. Bunu onlar başa düşməlidirlər. Bizim polis işçiləri onları çox mülayim formada başa salmağa çalışırlar. Siz indi yaxşı bilirsiniz ki, bəzi ölkələrdə polis nümayəndələri necə davranırlar. Televizorda görürük, heç iki-üç sual da vermir, dərhal hərəkətə keçir. Bizim polisimiz insanları qoruyur. İndi onların üzərinə böyük yük, böyük məsuliyyət düşür. Onlar da öz sağlamlıqlarını risk altına atırlar. Gecə-gündüz küçələrdə onu başa sal, bunu başa sal. Biz nə etməliyik?! Qaydaların pozulmasına imkan verə bilmərik. Biri deyir ki, mənə heç nə olmaz, biri deyir ki, mən qorxmuram. Söhbət ondan getmir ki, sənə heç nə olmaz, yoxsa olar. Birincisi, sənə bir şey olarsa, gərək ən azı 10 həkim sənə qulluq etsin, 10 həkim öz həyatını, sağlamlığını, yaxınlarının sağlamlığını risk altına atsın bir məsuliyyətsiz adama görə. Bu, tamamilə qəbuledilməz bir fikirdir ki, "mən qorxmuram, mənə bir şey olmaz". Hesab edirəm ki, belə adamlar məsuliyyətə cəlb edilməlidir", - deyə Prezident qeyd edib.

Unutmayaq ki, karantin dövründə ən çox səbrli olan elə polislərdir. Amma onları da anlamaq lazımdır. Onlar da insandır, əsəbləri gərgin, yorğun anları olur. Biz evdə oturduğumuz zaman onlar soyuq, isti bilmədən yollarda xidmət aparırlar, həyatımızın keşiyində dururlar. Elə bilirsiniz polisə xoşdur yayın istisində, istirahət günündə gün başına döyə-döyə ac, susuz xidmət çəkmək? Polis evindən, ailəsindən kənarda qalıb başqalarını qorumaq üçün xidmətdədir. Onlar öz vəzifəsini icra edirlər. Onlar qanun, asayiş, sabitlik keşikçisidirlər. O keşikçilər ki, başına pis bir iş gələn vətəndaş birinci növbədə elə ondan kömək istəyir, ona sığınır. O keşikçilər ki, pandemiya günlərində gecə-gündüzləri küçədə keçdi. Maska taxmayana irad tutdular ki, gedib ailəsini yoluxdurar. Qocalarla mədəni danışdılar, kobudluq göstərmədilər. Metrostansiyalarda qatarlara daxil oldular ki, adamlar maskanı çıxarmasınlar, sosial məsafəni gözləsinlər. Çox vaxt cərimə yazmayıb, mədəni şəkildə xəbərdarlıq etdilər. Biz karantin günlərində evimizdə rahat oturanda onlar xəstəliyə yoluxma riskini gözə almadan fasiləsiz fəaliyyət göstərdilər. Bəzi insanların təhlükədən qorunması, məsuliyyətsiz davranışların qarşısının alınması üçün səfərbər oldular. Bu gün isə o polis təhqir edilir, başına zibil atılır. Elə o zibil atan və qanunu pozan insanların düşüncə tərzi, məsuliyyətsizliyi ucbatından kiminsə bacısı, qardaşı, övladı virusa yoluxur, kiminsə valideyni bu xəstəlikdən həyatını itirir...

Dövlət qərar veribsə, vətəndaş olaraq bizim də borcumuz o qərarı yerinə yetirməkdir. İctimai məsuliyyətini anlayan insan karantin rejimini pozmaz və buna görə məsuliyyətə cəlb olunmaz. Vətəndaşın vəzifəsi qanuna sayğılı əməl etmək, polisin vəzifəsi isə qərara qarşı çıxanları məsuliyyətə cəlb etməkdir. Odur ki, polisi təhqir edənlər bunu nəzərə almalıdırlar. Vətəndaş kimi məsuliyyətimizi dərk etməliyik. Haqsızlığa susmayaq, amma haqsızlıq da etməyək.

***Xəyalə MURADLI,***
***"Azərbaycan"***

# Pandemiyanın məsuliyyətsizlik bəlası

## Koronavirusun mövcudluğuna inamsızlıq, səbəb olacağı dəhşətli hadisələrə laqeydlik acı nəticələr doğurur

Koronavirus pandemiyası (COVID-19) dünyanı vahimədə saxlamaqda davam edir. Hər ötən gün, yoluxma və ölüm sayı dəhşətli rəqəmlərlə artır. Hazırda dünyada koronavirusa yoluxanların sayı 7 milyonu ötüb, gözəgörünməz bəlanın aldığı canların sayı isə 406 207-ə çatıb. Həm də qlobal pandemiya insanları yalnız sağlıqları ilə təhdid etmir, bütün yaşam sahələrinə zərbə vurur, ölkələri maddi sıxıntı ilə üz-üzə qoyur, onlara yeni yaşam şərtləri diktə edir.

Ən qorxulu hal isə, hələlik bu bəlanın nədən yaranması, Yer üzündə nə qədər sürəcəyi, yox olub-olmayacağı ilə bağlı heç bir dəqiq cavabın olmamasıdır. Təhlükədən qurtuluşun hələlik yeganə yolu mütəxəssislərin tövsiyələrinə əməl edərək virusa yoluxmamaqdır...

### Virusa qarşı əldə olunan pozitiv nəticəni qoruyub saxlamaq mümkün olmadı

Ölkəmizdə pandemiya ilə əlaqədar məsələləri ciddi nəzarətdə saxlamaq, virusun geniş yayılmasının qarşısını almaq və insanların həyatını maksimum şəkildə qorumaq üçün zəruri və effektiv tədbirlər görüldü. Nəticədə xüsusi karantin rejimi dövründə yoluxma hallarının sayı minimuma endirildi, ölkəmizdə ölüm halları çox aşağı səviyyəyə düşdü, xüsusi rejimli xəstəxanalarda müalicə olunaraq sağalanların sayı yeni yoluxanların sayını üstələdi.

Çox təəssüf ki, xüsusi karantin rejimi yumşaldılandan və sərt qadağalar aradan qaldırılandan sonra yeni yoluxma hallarının sayında artım müşahidə olunmağa başlanmış, əldə edilmiş pozitiv nəticəni qoruyub saxlamaq mümkün olmamışdır. Məhdudiyyətlər aradan qaldırıldıqca ölkəmizdə koronavirus infeksiyasına yoluxma hallarının çoxalmasına səbəb Operativ Qərargah tərəfindən müəyyən olunmuş qaydalara, sosial izolyasiya tədbirlərinə əməl edilməməsi, xüsusilə maska taxılmaması olmuşdur.

### Yumşaldılma niyə dayandırıldı?

Elə bu məsuliyyətsizliklərə görə də karantin rejiminin yumşaldılması dayandırıldı və yenidən məhdudlaşdırılma aktivləşdirildi. Operativ Qərargahın qərarına əsasən, 2020-ci il 6 iyun saat 00:00-dan 8 iyun saat 06:00-dək Bakı, Sumqayıt, Gəncə, Lənkəran şəhərlərinin və Abşeron rayonunun ərazisində bütün iş, xidmət və ticarət sahələri üzrə fəaliyyət, eyni zamanda ictimai nəqliyyatın və avtomobillərin hərəkəti dayandırıldı. Qeyd olunan tarixdə əhalinin yaşayış yerlərini və ya olduğu yerləri tərk etməsi qadağan edildi.

Həmçinin koronavirus infeksiyasının yayılmasına səbəb olan əsas hallardan biri də əhalinin qoruyucu maskalardan istifadə etməməsi ilə əlaqədar olduğuna görə, epidemiya əleyhinə, sanitariya-gigiyena və karantin rejimləri dövründə tənəffüs yollarını qoruyan fərdi vasitələrdən istifadə ilə bağlı müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən tələblərin pozulmasına, habelə vəzifəli şəxslər tərəfindən həmin tələblərin pozulmasının qarşısının alınmamasına görə cərimələr müəyyənləşdirildi.

### Bu dəfə də qaydaları pozdular...

Operativ Qərargahın xüsusi karantin rejiminin müəyyən günlərdə sərtləşdirilməsi qərarı koronavirusun yayılma sürətinin azaldılmasından, onun törədə biləcəyi fəsadların minimuma endirilməsindən irəli gəlir. Bu qərardakı məhdudlaşdırıcı mahiyyət ümumi xarakterli olmaqla təhlükəli virusdan müdafiədə effektivliyi artırmaq, əhalini qorumaq, mümkün qədər çox insanın evdə qalmasını təmin etmək məqsədi daşıyır.

Bu qorxulu virusun yayılması hava, damcı yolu ilə olduğu üçün onun qarşısını ala bilmək yalnız profilaktik tədbirlər görməklə, Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) tövsiyələrinə əməl etməklə mümkündür. Göründüyü kimi, xəstəliyin yayılmasının qarşısını almaq, yaşaya biləcəyimiz acı ssenarilərin önünə keçmək üçün dövlətimiz bütün istiqamətlərdə lazımi addımlar atır. Vətəndaşlarının təhlükəsizliyi, sağlamlığı üçün zəruri tədbirlər həyata keçirir.

Amma xəstəliyə qarşı görülən bu tədbirlərin effektivliyi də, elə məhz vətəndaşların qaydalara uymasından, onların duyarlılığından asılıdır.

Nə yazıq ki, xəstəliyin yayılmasına birbaşa rəvac verən məsuliyyətsiz davranışlara ötən şənbə və bazar günlərində də rast gəlindi. COVİD-19 infeksiyasının yayılmasının qarşısının alınması məqsədilə Bakı, Sumqayıt, Gəncə, Lənkəran şəhərləri və Abşeron rayonu ərazilərində tətbiq edilən sərtləşdirilmiş xüsusi karantin rejiminin pozulmasına görə 06.06.2020-ci il saat 00:00-dan 08.06.2020-ci il 06:00-dək olan müddət ərzində nəqliyyat vasitələri ilə hərəkətdə olan 2524 nəfər İnzibati Xətalar Məcəlləsinin 211.1-ci maddəsi ilə, respublikanın digər avtomobil yollarında isə sərnişindaşımada istifadə olunan taksi və avtobuslarda tənəffüs yollarını qoruyan fərdi vasitələrdən istifadə edilmədiyinə görə həmin məcəllənin 211.2-ci maddəsi ilə 218 və eyni əməllərin il ərzində təkrar törədilməsinə görə məcəllənin 211.3-cü maddəsi ilə 5 nəfər olmaqla ümumilikdə 2776 hərəkət iştirakçısı inzibati məsuliyyətə cəlb edilib.

### İctimai nəqliyyatda fiziki məsafə saxlamaq çətin olduğundan, mütləq maskadan istifadə edilməlidir

Bəli, bu neqativ hallardan da məlum olur ki, hələ də bəzi insanlarda təhlükənin mövcudluğuna, onun yarada biləcəyi dəhşətli nəticələrə inamsızlıq və bu hissdən doğan laqeydlik müşahidə olunur...

Belə olmasaydı, hər məsuliyyətsiz davranışın, hər bir qayda pozuntusunun xəstələnmək və öz həyatını, ətrafını risk altına atmaq demək olduğu anlamı yaranardı. Bilərdilər ki, əməl etmədikləri hər bir qayda, sadəcə, özlərinin deyil, ümumilikdə xalqın taleyini təhlükəyə sürükləyir...

Baxmayaraq ki, koronavirusa yoluxmamağın çarəsi çox sadədir: sosial izolyasiya qaydalarına riayət etmək, maska taxmaq, şəxsi gigiyenaya diqqət etmək və lüzum olmadıqca küçəyə çıxmamaq.

Məcburiyyət səbəbindən evdən çıxmaq və ictimai nəqliyyatdan istifadə etmək zərurəti yarandıqda isə aşağıdakı qaydalara riayət etmək mütləqdir. Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) ictimai nəqliyyatdan istifadə edən sərnişinlərə tövsiyələri var:

- xəstəsinizsə, evdə qalın;
- ictimai nəqliyyatda fiziki məsafə saxlamaq çətin olduğundan, mütləq maskadan istifadə edin;
- tranzit stansiyanı tərk edərkən və son dayanacaqda əl gigiyenasına riayət edin. Əllərinizi spirt əsaslı dezinfektantla təmizləyin.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# Təhsilimizin böyük qayğıkeşi

Koronavirus bəlasının sərhədlərimizə yaxınlaşdığı ilk gündən onun sürətlə yayılma tendensiyasını nəzərə alaraq dövlətimiz tərəfindən uzaqgörənliklə mühüm və düşünülmüş qərarlar qəbul edildi. Əsl vətəndaşlıq mövqeyi nümayiş etdirməklə bir daha sübut olundu ki, ölkə rəhbərinin yürütdüyü siyasətin bünövrəsində xalqımızı hər bir çətinlikdən qorumaq amalı durur. Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva koronavirusla ümumxalq mübarizəsinin önündə getdi və gözəgörünməz düşmənlə qarşıdurmada da sərkərdəlik etdi.

Dünya xəritəsində kiçik də olsa öz yeri olan, bir milyondan çox qaçqın və məcburi köçkünün problemi ilə yüklənən, hələ də torpaqlarının 20 faizindən çoxunun işğal edildiyi bir ölkənin belə bir çətin dönəmdə duruş gətirməsi, vətəndaşlarının həyatını qoruması yaxşı bilirik ki, dost və ya düşmən masalarında müzakirə mövzusudur. Təkcə özümüzü deyil, dünyanı qurtarmaq üçün çabalarımız, daha çətin durumda olan ölkələrə etdiyimiz yardımlar tolerant və multikultural dəyərlərimizin Anayasamızdan tutmuş qəbul edilən qərarlarda, verilən fərman və sərəncamlarda önə çəkilməsi bir xalq olaraq humanistliyimizin, həm də qədim dövlətçilik ənənələrimizin təzahürüdür.

Aztəminatlı ailələrin müavinətlərinin artırılması, işsizlər üçün əlavə müavinətlərin təyin edilməsi, bu çətin dövrdə ölkə iqtisadiyyatının inkişafının qorunub saxlanılması istiqamətində qəbul edilən qərarlar, xaricdə olan soydaşlarımızın respublikamıza gətirilməsinin yüksək səviyyədə təşkili xalqımız tərəfindən rəğbətlə qarşılanır. Karantin rejimi ilə əlaqədar işə gedə bilməyən insanlara birdəfəlik ödəmənin, Heydər Əliyev Fondu tərəfindən imkansız ailələrə ərzaq yardımlarının verilməsi çox böyük əhəmiyyət daşıyır. Bu, Azərbaycan vətəndaşlarına olan qayğının və sevginin təzahürüdür.

Dövlət tərəfindən koronavirus (COVİD-19) infeksiyasının Azərbaycan ərazisində yarada biləcəyi təhlükənin qarşısının alınması məqsədilə həyata keçirilən təxirəsalınmaz tədbirlər təhsilimizi də əhatə edib. Yoluxma hallarının qarşısının alınması, bu sahədə aparılan müvafiq profilaktik tədbirlərin effektivliyinin yüksəldilməsi, ölkə ərazisində yerləşən bütün təhsil müəssisələrində tibbi-profilaktik, dezinfeksiyaedici və digər qabaqlayıcı tədbirlərin intensivləşdirilməsi məqsədilə 2020-ci ilin mart ayının 3-dən bütün təhsil müəssisələrində tədris, təlim-tərbiyə prosesi dayandırılıb.

Şagirdlərin dərs proqramından geri qalmaması üçün Təhsil Nazirliyi tərəfindən genişmiqyaslı işlər görülüb. "Mədəniyyət" kanalında yayımlanan "Dərs vaxtı" onlayn dərsi ilə yanaşı, nazirlik internet resurslarında da bu cür vasitələr yerləşdirib. Bu gün "Zoom", "YouTube" kanalında, eləcə də nazirliyin öz platformalarında şagirdlər üçün onlayn dərslər təşkil olunur və bütün siniflər əhatə edilir.

Ölkə Prezidentinin "Biz birlikdə güclüyük" çağırışına qoşularaq xalqımızın bu sınaq günündə meydana çıxan könüllü onlayn dərslər keçən müəllimlərin əməyini xüsusi vurğulamağa dəyər. Bu gün internet resurslarından istifadə edərək xeyli sayda müəllim "Zoom", "WhatsApp", "Facebook" və digər platformalar üzərindən şagirdlərə ödənişsiz onlayn dərslər keçirlər. Koronavirusla mübarizə dövründə könüllü olaraq övladlarımıza dərs keçən müəllimlərin sayəsində böyük könüllülər ordusu formalaşıb. Maraqlı məsələlərdən biri də odur ki, bu müəllimlər onların açdıqları qruplara qatılan hər bir uşağa böyük həvəslə tapşırıqlar verir, mövzuları izah edirlər.

Müşahidə olundu ki, bizim təhsil sistemində öz vəzifəsini məsuliyyətlə, şərəflə yerinə yetirən böyük bir müəllim ordusu var. Onların bu addımı müsbət tendensiyadır və bəzi məmurlara, öz məsuliyyətini dərk etməyənlərə, eləcə də müəllim adını ləyaqətlə daşıya bilməyənlərə böyük örnəkdir.

Prezidentin rəhbərliyi ilə ölkəmizdə gənclərin aparıcı qüvvəyə çevrilməsi istiqamətində böyük işlər görülür, dövlətçiliyə bağlı, yüksək intellektli və geniş dünyagörüşünə malik gənc nəsil formalaşıb. Hər bir Azərbaycan gənci ölkə başçısının gördüyü işlərin dəyərini çox yaxşı bilir və hər zaman Prezidentə güvənir. Türkiyədə olan azərbaycanlı tələbələrin hər birinə müəyyən vəsaitin verilməsi onlara həm maddi, həm də mənəvi kömək oldu.

Çox sevindirici haldır ki, Azərbaycan təhsil sisteminin yetirmələri olan mütəxəssislərin, "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" çərçivəsində xaricdə tibb təhsili almış şəxslərin də bu prosesdə müxtəlif formalarda rolu var. Xaricdə yüksəkixtisaslı mütəxəssislər kimi yetişən azərbaycanlı məzunlar artıq pandemiya ilə mübarizə sahəsində öz töhfələrini verirlər.

Nazirlər Kabineti koronavirus (COVİD-19) pandemiyasının ölkənin məktəblərində təhsil prosesinə mənfi təsirinin aradan qaldırılması ilə bağlı bəzi tədbirlər barədə 18 may 2020-ci il tarixli 179 nömrəli qərar qəbul edib. Həmin qərara 9-cu sinif buraxılış imtahanı qaydaları, 9-cu və 11-ci sinif təhsil bazasında orta ixtisas təhsili və ali təhsil müəssisələrinə qəbul qaydalarında müvəqqəti dəyişikliklər edilib. Bütün bunlar hər birimizdə əminlik yaradır ki, dövlətimiz tərəfindən həyata keçirilən zəruri tədbirlər və xalqımızın göstərəcəyi həmrəylik sayəsində tezliklə koronavirus infeksiyasına birlikdə qalib gələcəyik.

Vətənimiz və xalqımız üçün görülən bütün işlərə görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya dərin minnətdarlığımızı bildiririk. Biz müəllimlər Prezidentimizə inanır və güvənirik. Əminik ki, ölkə rəhbərinin səmərəli fəaliyyəti və xalqımızın həmrəyliyi sayəsində bu pandemiyanın Azərbaycana təsiri çox da böyük olmayacaq. Müəllimlər daim Prezidentimizin yanındadır.

***Zaur VƏLİYEV,***
***Bakı Dövlət Sosial-İqtisadi Kollecin tarix müəllimi***

# İcbari tibbi sığortanın tətbiq edildiyi 23 inzibati ərazidə 4,5 milyondan çox tibbi xidmət göstərilib

Məlum olduğu kimi, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi (İTSDA) tərəfindən icbari tibbi sığorta bu ilin əvvəlindən 23 inzibati ərazidə (Quba, Qusar, Xaçmaz, Şabran, Siyəzən, Xızı, Qobustan, İsmayıllı, Ağsu, Şamaxı, Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, Göyçay, Ucar, Zərdab, Kürdəmir, Mingəçevir, Yevlax və Ağdaş) tətbiq edilir.

İTSDA-dan verilən məlumata görə, cari ilin ilk 5 ayı ərzində sözügedən ərazilərdə tibb müəssisələrinə 906 131 nəfər 1 636 166 müraciət etmişdir. Bu müraciətlər üzrə 4 585 307 tibbi xidmət göstərilmişdir.

Vətəndaşların ən çox müraciət etdikləri regionlar Mingəçevir (240 093), Yevlax (135 380), Xaçmaz (114 385), Zaqatala (111 711) və Şəkidir (104 544). Ən çox tibbi xidmət göstərən tibb müəssisələri Mingəçevir şəhər (1 085 076), Yevlax (338 175), Ağdaş (337 022), Qusar (258 071) və Quba rayon mərkəzi xəstəxanalarıdır (254 415).

Məlumatda qeyd olunur ki, İTSDA tərəfindən tibb müəssisələrinin resurslarından və kadr potensialından səmərəli istifadəni təmin etmək, fəaliyyətlərini optimallaşdırmaq və əhalinin müxtəlif növ tibbi yardıma əlçatanlığını təmin etmək məqsədilə respublikanın inzibati ərazi vahidləri üzrə tibbi ərazi bölmələri (TƏB) yaradılmışdır. Hazırda icbari tibbi sığortanın tətbiqi 5 TƏB-i əhatə edir. TƏB üzrə müraciət sayına gəldikdə, ən çox Bərdə-Yevlax TƏB-ə müraciət edilib. Bərdə-Yevlax TƏB üzrə 449 037, Şəki-Zaqatala TƏB üzrə 428 025, Quba-Xaçmaz TƏB üzrə 321 767, Göyçay-Kürdəmir TƏB üzrə 228 746 və Dağlıq Şirvan TƏB üzrə 205 232 müraciət qeydə alınıb.

Müraciətlərin əksəriyyəti ümumi tibbi baxışla (42 070) bağlı olub. Ən çox müraciət edilən xəstəliklər sırasında yuxarı tənəffüs yollarının dəqiqləşdirilməmiş kəskin infeksiyası (36 951), essensial (birincili) hipertenziya (30 628), insulindən asılı olmayan şəkərli diabet (22 947), normal hamiləliyin gedişi üzərində müşahidə (18 212), diaqnozu müəyyən edilmiş, şikayəti olmayan şəxslərin ümumi tibbi baxışı və müayinəsi (17 169) və s. xəstəliklər yer alır.

Ümumilikdə 1021 həyati vacib-dəyəri yüksək olan əməliyyat həyata keçirilib. Bahalı əməliyyatlar arasında kardiologiya/ürək-damar cərrahiyyəsi (554), oftalmologiya (267), nevrologiya/neyrocərrahiyyə (76), urologiya (66) və travmatologiya (35) üzrə əməliyyatlar çoxluq təşkil edir.

***"Azərbaycan"***

# Koronavirus Ermənistanı cəhənnəmə çevirib

## Paşinyan iqtidarının pandemiya ilə bağlı vəziyyəti düzgün qiymətləndirməməsi işğalçı ölkəni uçuruma yuvarladıb

Ermənistanda koronavirus pandemiyası səbəbindən getdikcə ağırlaşan vəziyyət hakimiyyət üçün də əlavə problemlərə yol açmaqdadır. Hətta fikirlər səslənir ki, bu gedişlə Nikol Paşinyan yaxın vaxtlarda iqtidardan devrilə bilər. Yerli medianın yazdığına görə, hakimiyyət artıq Paşinyanın əlindən sürüşüb gedir. Bildirilir ki, baş nazir öz komandasında birliyi belə təmin edə bilmir. Hakimiyyətin müxtəlif qanadları arasında gərginlik yüksək həddə çatıb.

Bütün bunlara paralel olaraq işğalçı ölkədə sosial-iqtisadi durum pandemiya ucbatından daha sürətlə pisləşməkdədir. Ermənistanda koronavirusun yayılmasının qarşısını almaq məqsədilə martın 16-da elan edilmiş fövqəladə vəziyyətin müddəti aprelin 13-dən sonra iki dəfə 30 gün uzadılıb. Lakin martın 24-dən sonra azad hərəkət etmək və müəyyən iqtisadi fəaliyyət üçün qadağalar ləğv edilib. Mayın 18-dən sonra isə, infeksiya təhlükəsizliyi qaydalarına əməl etmək şərtləri ilə, ictimai nəqliyyatın, uşaq bağçaları, idman və gözəllik salonlarının, kafe və restoranların fəaliyyətinə icazə verilib.

Hazırda ölkədə virusa yoluxanların sayı 13 mini keçir. Pandemiya qurbanlarının ümumi sayı 200-ü ötüb. Bu arada xatırladaq ki, Ermənistanın baş naziri Nikol Paşinyana da koronavirus diaqnozu qoyulub. Baş nazir fövqəladə vəziyyət üzrə komendaturanın növbəti iclasından sonra ölkəsində vəziyyətin cəhənnəmə çevrildiyini açıqlayıb. Yerli medianın verdiyi xəbərə görə, Paşinyan ölkədə koronavirusa yoluxma hallarının kəskin artmasına görə səhiyyə sisteminin çökdüyünü, yeni xəstələri qəbul edə bilmədiyini, yüzlərlə xəstənin xəstəxanaya yerləşdirilmək üçün növbə gözlədiyini deyib. Onun sözlərinə görə, situasiya kritik həddi keçib və ölkə cəhənnəmə çevrilib: "Bu gün biz ölkədə total karantin tətbiq edilməsi barədə qərar qəbul etməyə çox yaxın idik. Lakin sonda belə qənaətə gəldik ki, bu, vəziyyəti xilas etməyəcək. Ölkədə antipandemiya hərəkatı başlamalıdır və biz hamımız situasiyaya ciddi yanaşmalıyıq".

Baş nazir vətəndaşları "koronavirus yoxdur", "maska taxmaq lazım deyil, çünki xeyri yoxdur", "hökumət yoluxanların sayını qəsdən şişirdir" kimi şayiələrə inanmamağa çağırıb. Paşinyana görə, virusun belə sürətlə yayılmasının səbəbi insanların təhlükəyə məhəl qoymaması və laqeydliyidir. Onun fikrincə, insanların davranışı dəyişmədən və epidemiya əleyhinə tədbirlərə sərt riayət olunmadan vəziyyəti normallaşdırmaq mümkün olmayacaq.

Sosial şəbəkələrdə bəzi istifadəçilər isə baş nazir Paşinyana onun Şuşada Araik Arutyunyanın andiçmə mərasimindən sonra ziyafət zamanı epidemioloji təhlükəsizlik qaydalarına riayət edilmədiyini irad tutublar. Bildirilir ki, sosial şəbəkələrdə yayılmış şəkillərdə görünür ki, masa arxasında toplaşanların əksəriyyəti nə maska taxıb, nə də sosial məsafə saxlayıb.

Politoloq Artur Atayev "İzvestiya" qəzetinə müsahibəsində qeyd edir ki, Ermənistanda hər gün 600-ə yaxın adam koronavirusa yoluxur və artıq bütün xəstəxanalar dolub. Ölənlərin sayı da hər gün artır. Ermənistan Cənubi Qafqazda koronavirusla bağlı ən dramatik vəziyyətin hökm sürdüyü ölkədir.

"Xəstə mövzu: Ermənistan nə üçün koronavirus üzrə rekordçudur" sərlövhəli məqalədə qəzet Ermənistanın koronavirus üzrə "antirekordu" haqqında yazır. Məqalədə deyilir ki, Ermənistan koronavirusa yoluxanların və bu səbəbdən ölənlərin sayı üzrə Zaqafqaziyada birinci yeri tutur. Məqalənin müəllifi İqor Karmazinin fikrincə, ölkədə infeksiyanın yayılmasına qarşı mübarizə üzrə radikal tədbirlər görülməsinə baxmayaraq, nə məmurlar məhdudiyyətlərə riayət edirdi, nə də sakinlər: "Məmurlar özləri insanları səhlənkar münasibətə təhrik edirdilər. Səhiyyə naziri Arsen Torosyan yazın əvvəlində keçirdiyi mətbuat konfransında bu tədbirə maska taxmış vəziyyətdə gəlmiş jurnalistləri lağa qoyurdu. Torosyan bildirirdi ki, koronavirusu təhlükəli hesab etmir. O deyirdi: "Spesifik dərmanlar lazım deyil. Ümumiyyətlə, onu adi qrip kimi müalicə edirlər".

Bildirilir ki, başqa siyasətçilər də məhdudlaşdırıcı tədbirlərə məhəl qoymurdular. Ermənistan parlamentinin deputatlarının vuruşmasının videosu sosial şəbəkədə geniş yayılmışdı. Mayın 8-də onlar kommunal ödənişlərlə bağlı fikir ayrılıqlarına görə əlbəyaxa oldular. Dalaşqan deputatlar sosial məsafəyə riayət etmirdilər. Mayın 21-də qondarma "Dağlıq Qarabağ respublikası"nın ("DQR") yeni "prezidenti"nin inaqurasiyasından sonra daha bir qalmaqal qopdu. Sosial şəbəkələrdə yayılmış fotoşəkillərdə görünür ki, Ermənistan və "DQR" hökumətlərinin üzvləri sosial məsafəyə və qoruyucu maskalara məhəl qoymurlar. Bütün bunların nəticəsində vətəndaşlar arasında da karantinə sərin münasibət yarandı.

Politoloq Artur Atayev vəziyyəti şərh edərək bildirib ki, Ermənistan hakimiyyətinin inamsız hərəkətləri etiraz əhvali-ruhiyyəsinin güclənməsinə gətirib çıxara bilər. Ekspert deyir ki, Paşinyan hökumətinin reytinqi karantinə qədər də düşürdü, indi də düşür. Bunun hansı nəticələrə gətirib çıxaracağı məlum deyil. Yaxın gələcəkdə etiraz aksiyaları başlanmasını istisna etmirəm. Bir sıra siyasi qüvvələr, ilk növbədə, vaxtilə Paşinyanın silahdaşları olmuş, lakin indiki hakimiyyətdə özlərinə yer tapa bilməmiş adamlar bu vəziyyətdən istifadə etməyə hazırdırlar. Ambisiyalı gənclər tezliklə vəziyyəti daha da qızışdıra bilərlər.

Bütün bunlar ondan xəbər verir ki, Ermənistanı qarşıdakı dövrdə daha böyük böhran gözləyir.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***


## B İ L D İ R İ Ş

"Azərbaycan" qəzetinin 17 və 30 aprel 2020-ci il tarixli nömrələrində "Azərsu" ASC-nin daxili vəsaiti hesabına su nasos aqreqatlarının satın alınması məqsədilə dərc edilmiş tenderdə iddiaçıların rəsmi müraciətlərinə əsasən tender təkliflərinin və təklif təminatlarının qəbulu vaxtı **18 iyun 2020-ci il saat 16:00-a,** təkliflərin açılışı isə **19 iyun 2020-ci il saat 16:00-a** dəyişdirilmişdir.

Əlaqələndirici şəxs - Təchizat və satınalmaların idarəolunması departamentinin Satınalmaların təşkili şöbəsinin mühəndisi Ağaəli Mirzəyev (agali.mirzeyev@azersu.az +99412 431-47-67(2246).

***Tender komissiyası***



## "Bakı Telefon Rabitəsi" Məhdud Məsuliyyətli Cəmiyyəti
## *açıq tenderə dəvət edir*

Tender 1 LOT üzrə keçirilir:

Təmizlik təsərrüfat mallarının satın alınması.

Tender iştirakçılarına təklif edilir ki, "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, tender təkliflərini dövlət satınalmalarının vahid internet portalı vasitəsilə təqdim etsinlər. İddiaçılar öz tender təkliflərində bütün vergi və rüsumları, təyinat yerinə daşıma xərclərini nəzərə almalıdırlar.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər

**150 ( bir yüz əlli ) manat (ƏDV daxil)**

iştirak haqqını sifarişçinin aşağıdakı hesablaşma hesabına köçürdükdən sonra dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə tenderin əsas şərtlər toplusunu ala bilərlər.

**VÖEN: 9900044741**
**hesab: AZ14AZPO91015461200420100157**
**bankın adı: "Azərpoçt" MMC PF 1**
**kodu: 691011**
**bankın VÖENi: 9900037711**
**m/h: AZ76NABZ01350100000000094944**
**S.W.İ.F.T: AZPOAZ22**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Tenderin əsas şərtlər toplusu Azərbaycan dilində tərtib edilmişdir.

Tenderdə iştirak etmək istəyənlər **02 iyul 2020-ci il saat 17:00-dək** aşağıdakı sənədləri dövlət satınalmalarının vahid internet portalı vasitəsilə təqdim etməlidirlər (tender təklifi və təklifin təminatı 1 faiz bank zəmanəti istisna olmaqla). Göstərilən vaxtdan gec təqdim edilən sənədlər qəbul edilməyəcəkdir.

*1. Tenderdə iştirak etmək üçün yazılı müraciət.*
*2. Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi.*
*3. Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır).*
*4. Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır).*
*5. Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikası Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin olmaması haqqında vergi və sosial müvafiq orqanlarından arayış.*
*6. İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti.*
*7. İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı.*
*8. İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*
*9. İddiaçıların müvafiq mallar üzrə uyğunluq sertifikatları.*
*10. Digər sənədlər.*

İddiaçılar tender təklifini və bank təminatını **10 iyul 2020-ci il saat 17:00-a** qədər dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş təkliflər qəbul edilməyəcəkdir.

Yuxarıda göstərilən sənədlər düzgün tərtib olunub vaxtında təqdim edildiyi təqdirdə tenderdə iştirak etmək istəyən malgöndərən iddiaçı kimi qeydə alınacaqdır.

İştirakçıların təklifləri **13 iyul 2020-cu il saat 11:00-da** dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə açılacaqdır.

**Qeyd:** Tenderdə iştirak, tender qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada **etender@gov.az** Dövlət satınalmalarının vahid internet Portalında aparılır.

***Tender komissiyası***



## Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondu
## *açıq tenderə dəvət edir*

"Azərbaycan Respublikası ƏƏSMN yanında Dövlət Sosial Müdafiə Fondunun server avadanlıqlarına, Fond tərəfindən həyata keçirilən elektron xidmətlərə, informasiya ehtiyatlarına və sistemlərinə dəstəyin göstərilməsi xidmətlərinin" satın alınması.

Tender iştirakçılarına təklif edilir ki, **https:www.etender.gov.az** - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar lot üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsi ilə təqdim edə bilərlər.

**İştirak haqqı: 1000.00 (bir min) manat**

| | |
|---|---|
| **VÖEN:** | **1300050781** |
| **Bank:** | **Dövlət Xəzinədarlığı Agentliyi** |
| **Hh:** | **AZ46CTRE00000000000007018504** |
| **Mh:** | **AZ41NABZ01360100000000003944** |
| **VÖEN:** | **1401555071** |
| **Kod:** | **210005** |
| **SWIFT:** | **CTREAZ22** |

| | |
|---|---|
| **Büdcə gəlirlərinin təsnifat kodu:** | **-142330** |
| **Büdcə səviyyəsinin kodu :** | **- 4** |

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*1. İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
*2. Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
*3. Tender təklifi (təkliflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
*4. Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (təkliflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
*5. Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqandan arayış;*
*6. İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
*7. İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
*8. "Fərdi məlumatların informasiya ehtiyatlarının formalaşdırılması və informasiya sistemlərinin yaradılması, onlara xidmət göstərilməsi fəaliyyəti"nə dair lisenziyanın təsdiq edilmiş surəti;*
*9. Bənzər layihələr üzrə iş təcrübəsini təsdiq etmək üçün belə layihələrin həyata keçirildiyi ən azı 3 (üç) müəssisə və təşkilatdan tövsiyə məktubu;*
*10. Tender iştirakçısının müəyyən etdiyi digər sənədlər.*

Sənədlər Azərbaycan dilində, tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə Satınalan Təşkilata ünvanlaya bilərlər. Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa və Dövlət satınalmalarını hüquqi cəhətdən tənzim edən Azərbaycan Respublikasının digər qanunvericilik aktlarına uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **02.07.2020 saat 14:00 tarixinə** qədər və tender təklifi ilə bank təminatı sənədlərini **10.07.2020 saat 14:00** tarixinə qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri **13.07.2020 saat 14:00** tarixində açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsi ilə tanış ola bilərlər.

**QEYD:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

***Tender komissiyası***


# Külli miqdarda narkotik vasitənin dövlət sərhədindən keçirilməsinin qarşısı alınıb

Dövlət Sərhəd Xidməti (DSX) narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə tədbirlərini uğurla həyata keçirir.

Sərhədçilərimizin sayıqlığı nəticəsində növbəti dəfə külli miqdarda narkotik vasitələrin və psixotrop maddələrin dövlət sərhədindən qanunsuz keçirilməsinin qarşısı alınıb. Belə ki, iyunun 2-də saat 01:30 radələrində "Göytəpə" sərhəd dəstəsinin xidməti ərazisində Biləsuvar-Gömrük avtomobil yolunda Ağalı kəndinin yaxınlığındakı sərhəd zastavasının xidməti sahəsində içərisində iki nəfərin olduğu ağ rəngli "Qazel" markalı 99-JG-082 dövlət nömrə nişanlı avtomobilin əraziyə yaxınlaşması, avtomobildən bir nəfərin düşərək özünü şübhəli aparması və ətrafı müşahidə etməsi sərhəd naryadının diqqətini cəlb edib. Şübhəli şəxs yolun kənarında gizlin yerdən bağlama götürərək hadisə yerindən uzaqlaşmağa cəhd edərkən sərhəd naryadı tərəfindən ona "Dayan" əmri verilib. Lakin o, əmrə tabe olmayaraq qaçmağa çalışarkən avtomobilin sürücüsü ilə birlikdə saxlanılıblar.







Saxlanılan şəxslərin 1973-cü il təvəllüdlü Bakı şəhər sakini Eyvazov Tahir Nəsrulla oğlu və 1981-ci il təvəllüdlü Ağcabədi rayon sakini Məmmədov Rəşad Vidadi oğlu olmaları müəyyənləşdirilib. Avtomobildəki bağlamaya baxış zamanı içərisində ümumi çəkisi 9 kiloqram 350 qram narkotik vasitəyə (4 kiloqram 265 qram heroinə, 2 kiloqram 10 qram metamfetaminə, 2 kiloqram 5 qram tiryəkə, 1 kiloqram 70 qram marixuanaya və 490 ədəd dərman preparatına) oxşar maddələr aşkarlanaraq götürülüb.

Araşdırma zamanı R.Məmmədovun idarə etdiyi nəqliyyat vasitəsinin əməkdaşı olduğu "Bakı Beynəlxalq Dəniz Ticarət Limanına" QSC-yə məxsus olması müəyyənləşdirilib.

Fakt üzrə cinayət işi başlanılıb, saxlanılan vətəndaşlar təqsirləndirilən şəxs qismində cəlb olunub və barələrində həbs qətimkan tədbiri seçilib.



# REPRESSİYA

GÜNAHSIZLAR



**Zaqafqaziya Müəllimlər Seminariyasını bitirmiş məzunlar arasında 1895-ci il təvəllüdlü Şəmkir rayonunun İrmaşlı kəndindən olan Həsənov Kamal Allahverən oğlunun da adı qürurla çəkilir. O, kənddə axund Əhmədin üçsinifli mədrəsə təhsilli məktəbini bitirdikdən sonra Zaqafqaziya (Qori) Müəllimlər Seminariyasının hazırlıq sinfinə qəbul edilmişdir. 1915-ci ildə seminariyanı başa vuran Kamal Yelizavetpol (Gəncə) quberniyasının Zəyəm nahiyəsində müəllim işləmişdir.**

# Bolşevik haqsızlığının qurbanı

Bu o vaxtlar idi ki, Azərbaycanın qərb bölgəsində də azərbaycanlılara qarşı erməni qırğınları həddini aşmışdı. Kamal müəllimin uğrunda mübarizə apardığı Azərbaycan Xalq Cümhuriyyəti 1920-ci ilin aprelində süquta uğradıldıqdan sonra uzaq dağ kəndi İrmaşlıda da yeni quruluşun düşmənlərini, müsavatçıları və Gəncə üsyanının iştirakçılarını axtarmaq adı ilə bolşevik-erməni silahlı birləşmələri evlərə basqın edir, adamları dindirəndə rus dilində cavab verə bilməyənləri yerindəcə güllələyirdilər. Bu zaman Qalaça kənd dördsinifli məktəbində dərs deyən Kamal müəllim rus dilini bildiyindən dilmanc (tərcüməçi) kimi çox adamın köməyinə çatırdı. Odur ki,1925-ci ilin payızında keçirilən yığıncaqda camaat Kamal müəllimin kənd şurasının sədri olmasını təkid etdi. Bolşevik və NKVD nümayəndələri nə qədər cəhd göstərsələr də, erməni namizədlərinin bu vəzifəyə seçilməsinə nail ola bilmədilər. Camaat Kamal müəllimi özünə arxa-dayaq hesab edirdi. Çünki o, bu vəzifəyə seçiləndən kənddə ölüm-itim, quldurluq azalmışdı, sakinləri bolşevik təqibindən, güllələnmədən, sürgündən və həbsxana zülmündən xilas edirdi.

Buna görə ermənilər və ermənipərəst məmurlar Kamal müəllimə göz verib, işıq vermirdilər. Bir dəfə Zəyəmə yolu düşəndə (o zaman İrmaşlı ərazi vahidi kimi Zəyəmə tabe idi) yaxşı münasibətdə olduğu sıravi rusəsilli milis nəfəri ona yaxınlaşıb deyir: "Kamal müəllim, bunlar səndən yaman yanıqlıdılar, ehtiyatlı olun, yerinizə başqasını şura sədri qoymaq istəyirlər..."

Kamal müəllim özü də bunu hiss edirdi. Qəza Komitəsində, İnqilabi Hökumətin yığıncaqlarında, Zəyəmdə məmurlar dəfələrlə Kamal Həsənovu erməniləri müdafiə etməməkdə günahlandırırdılar.

O zaman daşnak yuvası olan Çardaxlıdan və digər kəndlərdən olan erməni quldurları tez-tez azərbaycanlıların qoyun-quzu sürülərinə basqın edir, çobanları öldürür, mal-qaralarını aparırdılar. Bu barədə o, Gəncə Qəza Komitəsinə və İnqilabi Hökumətə, qəza milis idarəsinə dəfələrlə məlumat versə də, nəticəsi olmurdu. Çünki bolşevik qiyafəli ermənipərəst məmurlar istəyirdilər ki, Kamal Həsənov bu məsələdə erməniləri yox, öldürülən, mal-qarası oğurlanan azərbaycanlıları günahkar bilsin.

Bir gün yenə kəndə xəbər yayıldı ki, Çardaxlı erməniləri Atabəylə Yuxarı İrmaşlının arasında, Bulannıq dərəsindəki Avdı bulağının yanında çobanları döyüb, qoyun sürüsünü əllərindən alıblar. Kamal müəllim bunu eşidən kimi atını minib birbaşa Avdı bulağına tərəf çapır. Yolda görür ki, iki nəfər kənd sakini al-qanın içindədir.

- Əyə, dığalar sürünü hara apardılar? - deyən Kamal müəllim dayanmadan atını çobanların göstərdiyi səmtə çapır. Çardaxlıya çathaçatda erməniləri haqlayır, beşaçılanla ikisini güllələyir, birini də ölümcül yaralayır. Sonra da sürünün ağzını döndərir kəndə sarı.

Yolda camaata rast gəlir, qoyun-quzunu sahiblərinə verib deyir ki, gedirəm Zəyəmə, İnqilabi Hökumətə məlumat verim. Deyilənə görə, Kamal müəllim o gedən olur. Qohum-əqrəbanın da xəbəri olmadan keçirilən məhkəmədə Kamal Həsənov müqəssir bilinərək 10 il müddətinə azadlıqdan məhrum edilir.

...Tiflisdə Kamalı sürgünə göndərilən yüzlərlə "xalq düşməni"ndən ayırıb dustaq aparan başqa bir vaqona mindirirlər. Tələbəlik illərində Tiflisdən Qoriyə gələndə həmişə bu platformadan qatara minib təxminən bir saatdan sonra Qoridə düşərdi. Odur ki, qatar tərpənəndə Kamal bildi ki, Batuma tərəf gedirlər. Səhərə yaxın qatar sürətini azaldıb dayananda ona elə gəldi ki, buradan da harasa uzaq bir yerə aparacaqlar. Amma vaqondan düşəndə gözlərinə inanmadı: "Bu ki, Qoridir", - deyib səsini içinə qısdı. O qədər də böyük olmayan bu şəhərdə hər ünvan, hər tin ona tanış idi, yaxşı münasibətdə olduğu dostları çox idi. Xəyallardan onu kanvoyun amiranə səsi ayırdı...

Kamal Həsənov Qori həbsxanasında olanda da təmkinliyi, tədbirliyi və xeyirxahlığı ilə seçilib. Orada xeyli azərbaycanlı olub, əksəriyyəti də rus dilini bilmirmiş, onlar rus məmurları ilə danışıqlarında həmişə Kamal müəllimi çağırtdırarmışlar. Həbsxana rəhbərliyi də görürdü ki, Kamal vicdanlı adamdır, dustağın deyəcəyi fikri onlara yüksək səviyyədə tərcümə edir. O zaman İrmaşlıdan dörd nəfər Kamal müəllimlə bir yerdə olub. Dördü də "qolçomaq", yeni quruluşu qəbul etməyən "xalq düşməni" kimi həbs edilib. Onlardan biri də qaçaq Mayıl olub. Həmin vaxt malını-mülkünü şura hökumətinə vermədiyinə və yeni quruluşu bəyənmədiyinə görə NKVD onu 5 il müddətinə azadlıqdan məhrum etməklə Qori həbsxanasına göndərmişdi. Amma Mayıl bu həbsxanadan heç 5 ay keçməmiş Kamal müəllimin köməyi ilə qaçmışdı.

Mayıl həbsxanadan qaçandan sonra sovet quruluşunu qəbul etməyənlərə qoşulub yeni hökumətə qarşı vuruşurdu. 1930-cu ildə indiki Sabirkənddən yuxarıda, Babalar deyilən ərazidə bolşeviklər onu mühasirəyə alıb güllələyirlər.

...Kamal müəllimi 1935-ci ildə həbsdən iki il tez buraxmışdılar. Həyət-bacada təsərrüfat işləri ilə və üç-dörd baş qoyun-quzu saxlamaqla ailəsini dolandırırdı. Kənd toylarında, nişanda, qohum-qonşu tədbirlərində Kamal müəllim yazdığı şeirlərdən bir-ikisini deməsə, onu məclisdən buraxmazdılar. 1937-ci ildə NKVD işçiləri iki gündənbir Kamal müəllimin ya qapısına gəlir, ya da onu Zəyəmə çağırırdılar ki, sovet hökumətinin əleyhinə filankəsə belə demisən, filan yerdə belə danışmısan. Əslində, bunlar bir bəhanə idi, Çardaxlı erməniləri Kamalı yenidən aradan götürməyə çalışırdılar. Nəhayət, iki ildən sonra buna nail oldular. Zəyəm NKVD-nin nümayəndələri bir neçə erməni ilə gəlib pambıq yığımına getmədiyinə görə Kamal müəllimi və daha iki nəfəri həbs edirlər. Ona bildirirlər ki, şura hökumətinin ziyanına danışırsan, yeni quruluşun əleyhinə şeirlər yazırsan, kolxozu, kolxozçuları məsxərəyə qoyursan...

Yaxınlarının dediyinə görə, 1937-ci ilin oktyabr ayında Kamal Həsənovu Tiflis həbsxanasından Ağstafaya gətirirlər, 15-20 dəqiqəlik "məhkəmədən" sonra o, "xalq düşməni" elan olunaraq Gəncə Fövqəladə üçlüyünün hökmü ilə sürgünə göndərilir. Rus, alman və ərəb dilini yaxşı bilən, Qori Müəllimlər Seminariyasını əla qiymətlərlə bitirən, vətənpərvər ziyalı Qalaçalı Kamalın ailəsi onun nə öldüsündən, nə də qaldısından xəbər tuta bilir. Bilinən odur ki, Kamal müəllim ermənilərin əli ilə bolşevik haqsızlığının qurbanı olur.

***Rəhman SALMANLI, "Azərbaycan"***

YENİ NƏŞRLƏR

# Nakam talelərdən danışan əsərlər

**Son dövrlər çeşid-çeşid, cild-cild buraxılan nəşrlərin sayının çox olmamasına baxmayaraq, sanballarıı ilə seçilənləri də az deyil. Onların bəziləri həm tarixi, həm də yeni nəslin kitaba bağlılığı nöqteyi-nəzərdən diqqəti çəkməkdədir. Doğrudur, bu gün həmin kitabların müəllifləri arasında klassik ədəbiyyatımızın tanınmış simaları da var. Vaxtilə kiril əlifbasında buraxılmış əsərlərin də son vaxtlar bəzi nəşriyyatlar tərəfindən yenidən latın qrafikası ilə işıq üzü görməsi təqdirəlayiqdir. Bunu oxucu nəfəsi ilə qızınan kitabxanalarda da etiraf edirlər. Onların oxunaqlıları arasına daha ikisi də əlavə edilib.**




"Elm və təhsil" nəşriyyatının oxuculara təqdim etdiyi "Arxivlərdən gələn səslər"lə "Azərnəşr"in buraxdığı "1930-cu illərin günahsız qurbanları" kitablarının müəllifi Dövlət Tarix Arxivinin direktoru Aslan Kənan, ön söz müəllifi və redaktoru filologiya elmləri doktoru İslam Sadıq və Natiq Heydərlidir. Rəsmi arxiv sənədləri əsasında hazırlanan, repressiyaya məruz qalanların taleyindən söz açan hər iki kitabda ötən əsrin otuzuncu illərində azərbaycanlıların başına gətirilən müsibətlər - saxta üzədurmalar, milli vətənpərvərlərin şərlənərək həbsxana künclərinə atılması, orada minbir zülm və işgəncələrə məruz qalmaları, qondarma istintaq və məhkəmələr, ittihamlar, qəbul edilən qərarlar toplanıb.

"Arxivlərdən gələn səslər"də nələr yoxdur ki?! Burada Azərbaycanın böyük bəstəkarı Üzeyir bəylə kiçik qardaşı, Fransada yaşamağa məhkum olmuş Ceyhun Hacıbəyli haqqında maraqlı arxiv sənədləri ilə də qarşılaşırsan. Ceyhun Hacıbəylinin "Qarabağ dialekti və folkloru" adlı əsərinin 1933-cü ildə Parisdə çıxan "Asiya" jurnalına əlavə kimi 144 səhifədən ibarət ayrıca işıq üzü görməsi barədə məlumat, əlbəttə, oxucular üçün çox maraqlıdır.

1930-cu illərin günahsız qurbanları haqqında istər arxivlərdə, istərsə də nəşr edilmiş bir sıra əsərlərdə dəhşətləri ilə yaddaşa yazılan qanlı hadisələr az deyil. Müəllif yazır ki, vaxtilə ulularımızın yaşadığı tarixin bu "şikəst dövrü"nün tədqiqini qarşımıza məqsəd kimi qoymuşuqsa, o zaman hadisələri məntiqi baxımdan müəyyən etməli və onun real qiymətini doğru-düzgün verməyi bacarmalıyıq.

Bu kitab da müəllifin keçən əsrin əvvəllərində yaşamış insanların taleyindən bəhs edən araşdırmalar topusudur. Həmin araşdırmalar repressiyaya məruz qalmışların acı taleyinə işıq salır. Belə əsərləri qələmə almağın bir sıra çətinlikləri barədə kitabın ön söz yerində maraqlı bir qeyd var: "Repressiya qurbanları haqqında yazanların əksəriyyəti ilkin sənədlərlə tanış ola bilmir, onun əziyyətinə qatlaşmaq istəmir, obyektivliyi gözləmir, hisslərinin ardınca gedir, faktlardan çox şəxsi düşüncələrinə söykənir, nəticədə dəyərsiz yazılar ortaya çıxır. Əslində, istintaq materialları da o qədər dolaşıq və qarışıqdır ki, onlarla tanış olan tədqiqatçı belə əsl həqiqəti üzə çıxarmağa çətinlik çəkir. İstintaq materialları ilə tanış olub, insanlara verilən dəhşətli işgəncələri təsəvvür edəndə hər adamın əsəbləri dözmür, tarıma çəkilir..."

Elə buna görə də Aslan Kənan yazır: "Bu təsadüfə sevinsəm də, lakin vərəqləri çevirdikcə həyəcanımın durmadan artdığını hiss edirdim. Vaxtilə repressiyaya məruz qalan insanlar haqqında nəşr etdirdiyim kitabdakı ah-nalələri bir daha "eşitməmək" üçün bu mövzudan uzaq olmaq qərarına gəlmişdim..."

Lakin müəllif vətəndaşlıq baxımından belə ağır və çətin yazılan mövzuya qayıtmaya bilərdimi? Əsla. Kitabların hər ikisində bu - əsl vətəndaşlıq qayəsi özünü göstərməkdədir.

Maraqlı olduğu qədər də dəhşətləri özündə əks etdirən faktlardan görünür ki, "repressiya qatarı"nın "taqqa-taqqı" keçmiş SSRİnin bu başından o başınadək, Ağcaqum çöllərindən, Sibirdən, Tayqadan... keçərək gedib.

Ümumiyyətlə, hər iki topluda oxuculara təqdim edilən faktlardan müəllifin həm arxiv materialları əsasında peşəkarcasına işləməsi, həm də dəhşətli illərin ictimai-siyasi həyatındakı haqsızlıq və amansızlıqları bir qədər də publisistik dillə çatdırmaq məhərəti ilk andan hiss olunur.

***Məhəmməd NƏRİMANOĞLU, "Azərbaycan"***

FAKTLAR, RƏQƏMLƏR

# Müharibə ərəfəsində Azərbaycanda repressiya

**Müharibə ərəfəsi Azərbaycan xalqının repressiyası ilə yadda qalmışdı. 1937-ci ildə "əksinqilabçı millətçi-burjua" təşkilatının üzvü kimi 22 xalq komissarı, 49 rayon partiya komitəsi katibi, 29 rayon icraiyyə komitəsi sədri, 207 sovet və həmkarlar təşkilatının işçiləri, 57 zavod və mədən direktoru tutulmuşdu.**

Repressiyaya məruz qalan 400-ə yaxın məsul vəzifəli şəxs arasında MK katibləri, müxtəlif vaxtlarda Azərbaycan SSR-də və ZSFSR-də yüksək partiya və hökumət vəzifələri tutmuş şəxslər var idi. Göründüyü kimi, 1920-1930-cu illərdə terror SSRİ-nin dövlət siyasətinin tərkib hissəsi olmuşdur. Azərbaycan SSR XDİK yanında xüsusi üçlük 1937-ci ildə siyasi cinayət üzrə 2.846 nəfəri azadlıqdan məhrum etmiş, 2.215 nəfər güllələnmişdir. Təkcə antisovet təbliğatı və təşviqatına görə 1.108 nəfərə güllələnmə kəsilmişdir. 1937-ci ildə xüsusi üçlük 10 min adamın işinə baxmışdır.

ÖLÜM TƏCRİDXANASI



# AKMOLA HƏBS DÜŞƏRGƏSİ

**1937-ci il Azərbaycanda repressiyaların tüğyan etdiyi tarix olmuşdur. Həmin il bu proses özünün zirvə nöqtəsinə çatmış və təbii ki, sonralar da səngimək bilmədən davam etmişdir. SSRİ-nin cinayətkar siyasətinin daralması həbs düşərgələrində məhbusların əhəmiyyətli dərəcədə artmasına da gətirib çıxarmışdı. "Böyük təmizləmə" dönəmində kütləvi həbslər yüz minləri keçmişdi. 1931-1932-ci illərə aid arxivlər QULAQ düşərgələrində təxminən 200 min məhbusun olduğunu göstərirdi. 1935-ci ildə bu düşərgələrdə 800 min, koloniyalarda isə 300 min nəfərin saxlanıldığı bildirilirdi. On minlərlə ziyalımız məhv edilir, onların hamısı da "imperialistlərlə əlaqə"də, "vətənə xəyanət"də, "türkçülük"də, "islamçılıq"da ittiham olunurdular. O zaman xüsusilə azərbaycanlı ziyalıların bir təbəqə olaraq "ləğvi" stalinizmin başlıca məqsədlərindən birinə çevrilmişdir.**

1937-ci il iyulun 30-da XDİK-in "Keçmiş qolçomoqların, cinayətkarların və başqa antisovet elementlərin repressiya olunması üzrə əməliyyat haqqında" və həmin il avqustun 15-də "Vətən xainlərinin arvadlarının və uşaqlarının repressiya olunması üzrə əməliyyatlar haqqında" operativ əmrləri geniş müzakirə edilir. Hər iki əmr xalq daxili işlər komissarı N.Yejov tərəfindən hazırlanır. Bu, "böyük terror" dövrünün ən amansız, qeyri-insani aksiyası idi.

Akmola həbs düşərgəsi də həmin ildə, bu qərarların icrası nəticəsində yaranır və özünün vəhşi, qaniçən fəaliyyətinə başlayır. Bura postsovet məkanının ən qaranlıq və hazırda da insanları vahiməyə salan ərazilərindən biridir. İşgəncə tətbiqinə görə analoqu yox idi. Düşərgəyə xalq düşməni adı ilə güllələnənlərin həyat yoldaşlarını sürgün edirdilər. Cəza çəkən qadınlar cəhənnəmi xatırladan bu məkana qeyri-rəsmi "ALJİR" adası (Акмолинский лагерь жен изменников Родины) adını vermişdilər.

Düşərgə hazırda Qazaxıstanın paytaxtı olan Nur-Sultandan çox da uzaqda olmayan səhralığın ortasında salınıb. 15 avqust 1937-ci ildə NKVD başçısı Nikolay Yejovun imzaladığı 00486 nömrəli əmrə əsasən yaradılıb. Bu ölüm təcridxanasına güllələnmiş "xalq düşmənləri"nin həyat yoldaşları ilə yanaşı, onların anaları, bacıları və həddi-büluğa çatmış qızları da sürgün edilirdilər. Həmin adamlarla bağlı heç bir istintaq və məhkəmə işi aparılmırdı. Onların bütün əmlakları müsadirə olunur, evləri başqalarına verilir, hətta kiçik yaşlı uşaqlarının adları, soyadları dəyişdirilir, yetimxanalara, internatlara göndərilir, özləri isə valideyn hüququndan məhrum edilirdilər. Sovetlər həmin uşaqları öz bildikləri kimi, ideologiyalarına uyğun - sərt, amansız, qaniçən ruhda tərbiyə edirdilər. Bütün fəaliyyət dövrü ərzində düşərgədə 18 min qadın məhbus həyatı yaşamışdı. Digər araşdırmalara görə isə bu sayın 26 min olduğu göstərilir.

ALJİR-də keçən hər gün olduqca dözülməz olub. İlk dustaqlar bura 1938-ci ilin yanvarında xüsusi vaqonlarda gətiriliblər. XDİK (Xalq Daxili İşlər Komissarlığı) əvvəlcə onları aldadaraq qadın qohumları və doğmaları ilə görüşəcəklərini vəd ediblər. Ona görə çoxları bura gözəl geyimdə, bərli-bəzəkli görkəmdə gəliblər. Amma acı bir tale ilə rastlaşıblar. Minlərlə günahsız insan ölüm düşərgəsinin sakinlərinə çevriliblər. 30 hektar ərazidə yerləşən düşərgədə ilk tikinti işlərini, barakları, tikiş sexlərini, inzibati və yardımçı otaqlarını da bu qadınlar - birinci dəfə sürgünə göndərilənlər tikiblər. Düşərgənin tikintisi üç növbədə aparılıb. Təkcə altı ay müddətində tikinti zamanı soyuqdan 98 nəfər qadın həyatını itirib.

16 il, yəni 1938-ci ildən 1953-cü ilə qədər fəaliyyət göstərən Akmola düşərgəsinin üç rəisi olub: Aleksandr Bredixin, Sergey Barinov, Mixail Yuzipenko. Onların içərisində düşərgə sakinlərinin dediyinə görə Sergey Barinov az da olsa mərhəmətli rəis sayılıb. Araşdırmalarda xüsusi qeyd olunur ki, Akmola düşərgəsinin fəaliyyəti 1953-cü ildə dayandırılsa da, 1958-ci ilə qədər burada cəza çəkən qadınlara Qazaxıstanı tərk etmək qadağan edilib.

Akmolada həbs müddəti 5-10 il olub. Amma 1941-ci ildə müharibə başlayanda cəza müddəti qeyri-müəyyən vaxta qədər uzadılıb. Yəni cəzası başa çatanlar bu cəhənnəm yuvasından, əzab-əziyyətdən xilas ola bilməyiblər.

Düşərgədə çox sərt daxili rejim qaydaları hökm sürürdü. Bu qaydaları pozanlara isə rejim qaydalarından daha ağır cəzalar tətbiq edilirdi. Məsələn, qış fəslində, temperaturun mənfi 30-40 dərəcə olduğu bir vaxtda qaydaları pozan qadınların çılpaq şəkildə ərazidə 1 saat "gəzintisi" keçirilərdi və bu, ən adi cəzalardan biri sayılırdı. Yaxud eyni vəziyyətdə olan qadını nəzarətçinin otağında yanan sobanın bir neçə santimetrliyində stula bağlayaraq yüksək temperatur verilməsi və sonra stul qarışıq həyətə buzun, qarın üstünə atılması da bu düşərgədə təəccüblü hadisə sayılmırdı. Qadınların iradəsini sındırır, onları həyat yoldaşlarından, ata və qardaşlarından imtina etməyə məcbur edirdilər.

Düşərgə əməkdaşları tərəfindən tez-tez "yemək-içmək" məclisləri təşkil edilirdi, bundan sonra da qadınların vəziyyəti acınacaqlı olurdu. Hətta bəzi hallarda aclıqdan, qidasızlıqdan zəifləyən qadınlara qatqısız texniki spirt içirdilir və onların düşdüyü vəziyyətlər nəzarətçilər üçün əyləncəyə çevrilirdi.

Yuyunmaq və paltar yumaq üçün gün ərzində qadınlara yalnız bir vedrə su verilirdi. Lap yaxınlıqda su mənbəyinin olmasına baxmayaraq, əlavə sudan istifadə etmək ciddi qanun pozuntusu sayılırdı.

Ətrafla tam təcrid olunan düşərgənin ərazisinə giriş yalnız NKVD başçısı Nikolay Yejovun imzası olan xüsusi buraxılışla həyata keçirilirdi. Düşərgədə cəza çəkən qadınlar yaxın adamları ilə görüşmək, bağlama qəbul etmək, məktub göndərmək və almaq hüquqlarından məhrum idilər. Qadınlara mənəvi əzab vermək üçün yerli NKVD orqanlarının əməkdaşları tez-tez görüşlər keçirirdilər. Onlar məhbuslara övladları haqqında məlumat verib bildirirdilər ki, uşaqlar valideynlərinə xalq düşməni kimi nifrət edirlər və heç vaxt onlarla görüşmələrini arzu etmirlər.

Qadınların məruz qaldıqları işgəncələr insanlığa sığmırdı. Bir çoxları ağıllarını itirir və ya intihar edirdilər. Akmola düşərgəsinə göndərilənlərin şəxsi işlərində iki bənddə aparılan qeydlər fərqli şriftlərlə qeyd olunurdu. Cinayət dərəcəsi - "xüsusi təhlükəli cinayətkar", işə yararlığı - "ən ağır işlərin görülməsi üçün". Həmin dövrü tədqiq edən araşdırmaçılar yazırlar ki, ölənlərin və sağ qalanların sənədlərinin kifayət qədər olmaması səbəbindən dəqiq say məlum deyildi. Düşərgənin rəhbərliyi hesab edirdi ki, Qazaxıstanın ərazisi böyükdür və ölənləri kütləvi şəkildə qardaşlıq məzarlığında basdırmaq olar.

Yerli əhalinin xatirələrinə görə onlar məhbus qadınların öz həbs səbəbləri haqqında danışdıqlarına inanmırdılar. Məhbuslarla yerli əhalinin əlaqəsinin məhdud olmasına baxmayaraq, düşərgənin tikintisi üçün əhəmiyyətli dərəcədə böyük ərazi yerli əhalinin əlindən alınmışdı. Bu ərazidə bir neçə qazax aulu və "avropalı" əhalisi olan 7 qəsəbə var idi (4861 təsərrüfat və 21979 nəfər insan). Düşərgənin tikintisinə görə bu əhali Karaqanda vilayətinin digər bölgələrinə köçürülmüşdülər. Düşərgənin ehtiyacları üçün yerli əhalinin mal-qarası əllərindən alınmışdı. Düşərgə nəzarətçiləri duyuq düşməsinlər deyə qazax qadınlar özlərini məhbuslara qarşı daş atan kimi göstərirdilər. Əslində isə onlar qadınların üzərinə qurut atırdılar. Bu da neçə qadının aclıqdan ölməsinin qarşısını almışdı.

Akmola düşərgəsində o dövrün tanınmış simalarının, partiya və dövlət xadimlərinin arvadları, anaları, bacıları, qızları, görkəmli yazıçılar, şairlər, aktrisalar həbs cəzası çəkiblər. SSRİ Ali Soveti Rəyasət Heyətinin sədri Mixail Kalininin həyat yoldaşı Yekaterina Kalinina, marşal Tuxaçevskinin bacısı Yelizaveta Tuxaçevskaya, yazıçı Qalina Serebryakova, Siyasi Büronun üzvü Nikolay Buxarinin həyat yoldaşı Anna Buxarina, aktrisa Tatyana Okunevskaya, dövrün sevilən müğənnisi Lidiya Ruslanova, Mixail Plisetskinin həyat yoldaşı, aktrisa Rahil Messerer-Plisetskaya, rejissor və teatr xadimi İsrail Veytserin həyat yoldaşı Nataliya Sats, tarixçi və arxeoqraf Kseniya Serbina, sovet kinematoqrafı, jurnalist Arkadi Qaydarın həyat yoldaşı, Yeqor Qaydarın nənəsi Liya Solomyanskaya, sovet diplomatı Kərim Xakimovun həyat yoldaşı Xədicə Xakimova və digər tanınmışlar uzun illər bu düşərgənin sakinləri olublar.

Düşərgədə Azərbaycandan da 44 nəfər qadın cəza çəkib. Çox təəssüflə yazırlar ki, düşərgənin arxivində bu qadınlar haqqında az məlumat var. Əslən Qazax rayonu Dağkəsəmən kəndindən olan mülkədar qızı Sənubər Eyyubova həbs edilən ərəfədə Azərbaycan Pedaqoji İnstitutunun Tarix fakültəsinin dekanı olub. Sitarə Mehdiyeva bir çox məsul dövlət vəzifələrində çalışmış, sonradan "xalq düşməni" elan olunmuş Mehdi Mehdiyevin xanımı idi. Ən görkəmli xanımlardan biri isə mərhum vətənpərvər şairimiz Əhməd Cavadın həyat yoldaşı Şükriyyə xanım olub. O, sürgündən qayıtdıqdan sonra da Bakıda qala bilməyib, icazə verməyiblər. Ona görə də uzun müddət Şəmkirin Seyfəli kəndində yaşamağa məcbur olub.

Daha sonra Tamara Hüseynova Cümhuriyyətin qurucusu və ilk baş naziri Fətəli xan Xoyskinin yeganə qızı olub. Həyat yoldaşı Mirzə Davud Hüseynovla birlikdə Moskvada eyni gündə həbs edilib, eyni həbsxanaya aparılıblar. Mirzə Davud ölümə, Tamara xanım sürgünə göndərilib. Əliyeva Kənizənin həyat yoldaşı Əliyev Niyaz 1931-1932-ci illərdə Qubadlı rayon partiya komitəsinə rəhbərlik edib. 15 fevral 1937-ci ildə əksinqilabi fəaliyyət ittihamı ilə həbs olunub. Kənizə xanım isə 13 aprel 1938-ci il tarixdə "vətən xaininin həyat yoldaşı" kimi tutulub, XDİK-in 29 may 1938-ci il tarixli qərarına əsasən cəzasını islah-əmək düşərgəsində çəkməklə 8 il müddətinə azadlıqdan məhrum edilib. Nəimə Məmmədova xalq maarifinin təşkilatçılarından olan yazıçı-pedaqoq Rəşid bəy Əfəndiyevin kiçik qızı, tarixçi-alim, Azərbaycan Dövlət Universitetinin kitabxanasının direktoru Ağamir Məmmədovun həyat yoldaşı olub. Ağamir Məmmədov 10 yanvar 1937-ci ildə Azərbaycan SSR Xüsusi Dövlət İstintaq Komitəsi tərəfindən terrorçu əksinqilabi-millətçi, pantürkist təşkilatın üzvü olmaqda ittiham olunaraq həbs edilib. Üç aylıq istintaqdan sonra güllələnməyə məhkum edilib. Nəimə Rəşid qızı isə "vətən xaininin həyat yoldaşı" kimi cəzasını islah-əmək düşərgəsində çəkməklə 8 il müddətinə azadlıqdan məhrum edilib. Bayıl həbsxanasından ALJİR düşərgəsinə göndərilib.

Siyahını uzatmaq olar... Bu qadınlar bir günahın cəzasını çəkiblər: Stalin repressiyasına məruz qalmış insanların əzizləri, doğmaları olduqları üçün... Repressiyalar taleləri sındırıb, minlərlə ailəni başsız qoyub, ata-anaları, uşaqları gözü yolda qoyub.

Bu gün ALJİR muzey kimi fəaliyyət göstərir, həmçinin ərazidə çox böyük xatirə kompleksi də yaradılıb. Muzeyə girişdə 2007-ci ildə Nursultan Nazarbayev tərəfindən açılan "Qəm alaqapısı" yerləşir. O, 1993-cü ildə həmin düşərgənin bütün qurbanlarına bəraət verilməsinə dair fərman imzalayıb. Muzeydə həmin illərdən qalmış istintaq təcridxanasının qapısı, qadınların aldadılaraq evdən çıxarkən son dəfə geyindikləri təzə, bərli-bəzəkli paltarları, ayaqqabıları, uşaqların analarına, anaların ailələrinə məktubları, düşərgədə işlədilən əmək alətləri, tikiş maşını, istintaq otaqları, otaqlardakı istintaqçıların maketi və dövrü təsvir edən bir çox eksponatlar mövcuddur. Kompleksin həyətində isə azərbaycanlı qadınların xatirəsinə xüsusi lövhə vurulub. Orada olanlar yazırlar ki, muzey kompleksinə çevrilmiş düşərgədə iki heykəl qoyulub. Birinci, kişi heykəli - "ümidsizlik və gücsüzlük" adlanır. İkinci, qadın heykəli isə - "ümid və mübarizə" adlanır. Məhz bu ikinci, qadın heykəli başını dik tutaraq məğrur baxışlarla azadlığa yol axtarır.

***İradə ƏLİYEVA, "Azərbaycan"***

# Artilleriya bölmələrinin döyüş atışlı təlimləri keçirilib

Azərbaycan Respublikası Müdafiə nazirinin təsdiq etdiyi 2020-ci ilin döyüş hazırlığı planına uyğun olaraq, raket və artilleriya birləşmələrinin döyüş atışlı təlimləri keçirilib.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, təlimlərdə artilleriya bölmələri marşları icra edib, cəmləşmə rayonlarına çıxıb və atəş mövqelərini tutaraq döyüş atışlarını yerinə yetiriblər.



## Azərbaycan Respublikasının Mərkəzi Bankı xəzinə infrastrukturunun fəaliyyətini təmin etmək üçün elektrikli yükqaldıranların satın alınması üzrə *açıq tender elan edir*

Azərbaycan Respublikasının Mərkəzi Bankı "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq xəzinə infrastrukturunun fəaliyyətini təmin etmək üçün elektrikli yükqaldıranların satın alınması üzrə açıq tender üsulu ilə elektron satınalma keçirir.

Tender proseduru **10 iyul 2020-ci il saat 15:00-da** Dövlət satınalmalarının vahid internet Portalında (**https://etender.gov.az/**) (bundan sonra - Portal) keçiriləcəkdir.

Tenderdə yalnız mikro, kiçik və orta sahibkarlıq subyektləri iştirak edə bilərlər.

Maraqlanan şəxslər tenderdə iştirak etmək üçün Azərbaycan Respublikası Mərkəzi Bankının aşağıdakı hesabına 200 (iki yüz) manat məbləğində iştirak haqqı ödəməklə Portal vasitəsilə əsas şərtlər toplusunu əldə edə bilərlər:

**Azərbaycan Respublikasının Mərkəzi Bankı**
**Kod: 501004**
**VÖEN: 9900071001**
**Hesab: AZ25NABZ01701190000000001944**
**Müxbir hesab: AZ74NABZ01451700000000001944**
**S.W.I.F.T. BİK: NABZAZ2C**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Tenderdə iştirak etmək üçün iddiaçılar Portal vasitəsilə aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *iddiaçının tam adı, nizamnaməsi, dövlət qeydiyyatı haqqında şəhadətnamə və ya hüquqi şəxslərin dövlət reyestrindən çıxarış, bank rekvizitləri;*
- *tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd;*
- *Azərbaycan dilində tender təklifi (tender təklifi 25 avqust 2020-ci il tarixədək qüvvədə olmalıdır);*
- *tender təklifinin qiymətinin 1 (bir) faizi məbləğində bank təminatı (tenderin əsas şərtlər toplusuna əlavə edilən bank qarantiyası formasında);*
- *iddiaçının son 1 (bir) ildəki maliyyə vəziyyəti barədə bank arayışı;*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin, habelə son 1 (bir) il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrin yerinə yetirilməməsi hallarının mövcud olmaması haqqında müvafiq dövlət orqanından arayış;*
- *iddiaçının son 2 (iki) il ərzində müvafiq sahə üzrə təcrübəsinin olması və əsas korporativ müştəriləri barədə məlumatlar (adı, ünvanı və əlaqə telefonu);*
- *tenderin əsas şərtlər toplusunda iddiaçının ixtisas uyğunluğuna dair tələb olunan digər məlumat.*

İddiaçılar tender təklifini və tender təklifinin bank təminatını **10 iyul 2020-ci il saat 14:00-a** qədər, digər tələb olunan sənədləri isə ən geci **01 iyul 2020-ci il saat 18:00-a** qədər Portal vasitəsilə təqdim edə bilərlər.

Satınalmaya başlanma vaxtı: satınalma müqaviləsi imzalandığı gündən.

Malların təqdim edilməsi müddəti: satınalma müqaviləsi imzalandığı gündən 120 (yüz iyirmi) təqvim günü müddətində.

Qiymətləndirmə meyarları: qiymət və keyfiyyət amili (funksional yararlılıq).

İddiaçılar tərəfindən tenderlə bağlı bütün sorğular və onlara dair izahatlar yalnız Portal vasitəsilə verilir.

Tender prosedurunun hər bir iştirakçısı onun təklifinin açılmasını və qiymətləndirilməsini Portal vasitəsilə müşahidə edə bilər.

***Tender komissiyası***

## Azərbaycan Respublikasının Dövlət Neft Fondu 6 LOT üzrə təkliflər sorğusu elan edir

LOT 1. Toyota Camry və 2 ədəd Toyota Corolla model avtonəqliyyat vasitələrinə texniki xidmətin (ehtiyat hissələri və sürtkü materialları daxil olmaqla) satın alınması;

LOT 2. Mazda 6 model avtonəqliyyat vasitəsinə texniki xidmətin (ehtiyat hissələri və sürtkü materialları daxil olmaqla) satın alınması;

LOT 3. Volkswagen Amarok model avtonəqliyyat vasitəsinə texniki xidmətin (ehtiyat hissələri və sürtkü materialları daxil olmaqla) satın alınması;

LOT 4. Nəqliyyat xidmətlərinin satın alınması;

LOT 5. Transformator qurğusu üçün təmir materiallarının satın alınması;

LOT 6. Kəsintisiz güc mənbəyi (UPS) üçün təmir materialının satın alınması.

Təkliflər sorğusunda iddiaçı kimi iştirak etmək istəyənlər AZ1029, Bakı şəhəri, Nizami rayonu, Heydər Əliyev prospekti, 165 ünvanına (telefon: +99412 498-77-53, faks: +99412 565-87-55, əlaqələndirici şəxslər: Əli Rzayev-daxili: 1005, hüquqi məsələlər üzrə Kəmalə Rəhimova-daxili: 8023) müraciət edə bilərlər.

Müqaviləni yerinə yetirmək üçün təkliflər sorğusu üzrə iddiaçılar lazımi maliyyə, texniki imkanlara və təcrübəyə malik olmalıdırlar.

Təkliflər sorğusu proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

Təkliflər sorğusunda iştirak etmək üçün sənədlər 16 iyun 2020-ci il saat 18:00-dək qəbul olunur.

İddiaçıların təklifləri 17 iyun 2020-ci il saat 11:00-da AZ1029, Bakı şəhəri, Nizami rayonu, Heydər Əliyev prospekti, 165 ünvanında açılacaqdır.

***Tender komissiyası***

## Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı satınalma sorğusunda iştiraka dəvət edir

Predmet: BMT-nin İnkişaf Proqramının layihələri üçün müxtəlif şəhər və rayonlara çatdırılmaq şərti ilə tikiş, toxuculuq maşınlarının və müvafiq aksesuarların satın alınması üçün Çərçivə Müqaviləsi

İştirak etmək istəyənlər öz təkliflərini bu elana əlavə olunan keçiddəki formalara uyğun olaraq hazırlayıb aşağıdakı e-mail ünvanına təqdim edə bilərlər: **procurement.aze@undp.org**

**https://www.az.undp.org/content/azerbaijan/en/home/procurement.html**

Təkliflərin təqdim edilməsi üçün son tarix: 19 iyun 2020-ci il saat 18:00

Hər hansı sual olduğu təqdirdə, **procurement.aze@undp.org** ünvanına yazılı şəkildə müraciət etmək olar. Mövzu yerində "Tikiş maşınları" göstərmək tövsiyə edilir.

***Tender komissiyası***

## Azercell abunəçilərinin nəzərinə

"Azercell Telekom" MMC tərəfindən göstərilən xidmətlərin keyfiyyətinin daha da artırılması məqsədilə aparılacaq təkmilləşdirmə işləri ilə əlaqədar 10.06.2020-ci il tarixi gecə saatlarından başlayaraq 11.06.2020-ci il səhər saatlarınadək bəzi xidmətlərin istifadəsində müvəqqəti çətinliklərin yaranması mümkündür.

## B İ L D İ R İ Ş

"Bakı Metropoliteni" QSC tərəfindən 21 may 2020-ci il tarixdə LOT-1 üzrə **"Bakı Metropoliteni" QSC-nin "B-3" stansiyasının sahələrində döşəmənin epoksid döşəmə örtüyü ilə rənglənməsi işlərinin** satın alınmasına dair açıq tender üsulu ilə keçirilən müsabiqədə "CMT GROUP" MMC qalib elan olunmuşdur.

Qalib gəlmiş təşkilat ilə 02.06.2020-ci il tarixdə **295182,89** manat (iki yüz doxsan beş min yüz səksən iki manat 89 qəpik) ƏDV daxil məbləğində müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

"Azərbaycan" qəzetinin 21.04.2020-ci il tarixli nömrəsində dərc edilmiş və dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə keçirilmiş yeddi LOT-dan ibarət tenderlə əlaqədar Tender komissiyasının 01 iyun 2020-ci il tarixli qərarına əsasən Azərbaycan Respublikası Mərkəzi Bankının mərkəzi ofisinin və ərazi idarələrinin inzibati binalarında quraşdırılmış elektrik avadanlıqlarına texniki xidmətin satın alınması (LOT 3) üzrə "Yanğından Qorunma Sistemləri" MMC, Azərbaycan Respublikası Mərkəzi Bankının mərkəzi ofisinin və Bakı şəhəri Ə.Əliyev küçəsi, 10 ünvanında yerləşən inzibati binasında təmir-bərpa işlərinin satın alınması (LOT 4) üzrə isə "Yeni layihə" MMC qalib elan edilmişdir.

Qalib şirkətlərlə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## Elan

### "Lider Tv və Radio-Azərbaycan" MMC-nin iflas elan edilməsi barədə

Kreditor Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin "Radio-Televiziya Yayımı və Peyk Rabitəsi" İstehsalat Birliyi (Bakı ş., Ak. A.Abbaszadə küç, 2) borclu "Lider Tv və Radio-Azərbaycan" MMC-yə (Bakı ş., Ş.Mehdiyev küç., 83 ) qarşı iflas elan edilmə haqqında iddia ərizəsi ilə məhkəməyə müraciət etmişdir.

İş üzrə növbəti məhkəmə iclası 16.06.2020-ci il saat 10:30-da Bakı Kommersiya Məhkəməsinin İnzibati binasının 13-cü məhkəmə iclas zalında keçiriləcək.

***"Radio-Televiziya Yayımı və Peyk Rabitəsi" İstehsalat Birliyi***

## Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi kənd yerlərində sahibkarlıq fəaliyyətinin təşviqi ilə bağlı konsaltinq xidmətinin satın alınması məqsədilə *açıq tender elan edir*

Tender iştirakçıları https://www.etender.gov.az/ - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olmaqla tender haqqında ətraflı məlumat əldə edə bilərlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar müəyyən edilmiş iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**İştirak haqqı: 500 AZN**
**İddiaçılar iştirak haqqını aşağıdakı hesaba ödəməlidirlər:**

**Təşkilatın adı: Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi**
**VÖEN: 1603326271**

**Bank rekvizitləri: "Kapital Bank" ASC-nin Mərkəzi filialı**
**H/h: AZ33AIIB38060019440419716102**
**VÖEN: 9900003611**
**Kod: 200026**
**Müxbir hesab: AZ37NABZ01350100000000001944**
**S.W.İ.F.T. AIIBAZ2X**

Tenderdə iştirak haqqı heç bir halda geri qaytarılmır. Tenderdə iddiaçı kimi iştirak etmək istəyənlər aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *iddiaçının tam adını, hüquqi statusunu əks etdirən hüquqi sənədlərin (nizamnamə, dövlət qeydiyyatı haqqında şəhadətnamə və ya reyestrdən çıxarış və s.) notarial qaydada təsdiq edilmiş surətləri;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti barədə bank arayışı;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (tender təklifinin qüvvədə olma müddətindən azı 30 bank günü çox olmalıdır);*
- *iddiaçıların son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında arayış.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri 06.07.2020-ci il saat 16:00-a qədər və tender təklifi ilə bank təminatı sənədlərini 14.07.2020-ci il saat 16:00-a qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri 15.07.2020-ci il saat 16:00-da açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**QEYD:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

İddiaçılar E-şərtlər toplusunu 09.06.2020-ci il saat 09:00-dan (elan tarixi günü) sonra əldə edə bilərlər.

***Tender komissiyası***

## Ermənistan silahlı qüvvələrinin bölmələri snayper tüfənglərindən də istifadə etməklə atəşkəs rejimini 24 dəfə pozub

Ermənistan silahlı qüvvələrinin bölmələri sutka ərzində cəbhənin müxtəlif istiqamətlərində snayper tüfənglərindən də istifadə etməklə atəşkəs rejimini 24 dəfə pozub.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistan Respublikasının Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Azərbaycan Respublikasının Gədəbəy rayonunun Zamanlı kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Ağdam rayonunun işğal altında olan Tağıbəyli, Füzuli rayonunun Aşağı Veysəlli kəndləri yaxınlığında, həmçinin Tərtər, Ağdam və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqelərinə atəş açılıb.

## ALLAH RƏHMƏT ELƏSİN!

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsinin əməkdaşları iş yoldaşları Hafizə Abdullayevaya atası
**KAMİL ABDULLAYEVİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin rəhbərliyi və kollektivi Dövlət Məşğulluq Xidmətinin əməkdaşı Anar Həsənliyə atası
**NURƏDDİN HƏSƏNLİNİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Ağəli İsmayılov Mürvət Həsənliyə qardaşı
**ƏLİNİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası K.Y.Fərəcova adına Elmi-Tədqiqat Pediatriya İnstitutunun rəhbərliyi və kollektivi iş yoldaşları Aynur xanım Seyidliyə əzizi
**MUXTAR MÜƏLLİMİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 7605
Sifariş 1485
Qiyməti 40 qəpik